

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 aprel 2026-cı il, şənbə
№ 056 (7123)
Qiyməti 60 qəpik


# Tarixi, mədəni, etnik köklərin formalaşdırdığı təməl...

## İlham Əliyev: Təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq



Bax səh. 2

## Hədəf 2 trilyon dollar...

Bax səh. 3

## Aprel qələbəsi: Lələtəpədən Xankəndiyə...



Bax səh. 4

## BMT müstəvisində növbəti uğur

Bax səh. 5

### Tehrandan zəng

Bax səh. 2

### TDT yeni iqtisadi imkanlar yaradır

Bax səh. 3

### Uçot dərəcəsi dəyişmədi

Mərkəzi Bank təmkinli pul siyasəti yürütməkdədir

Bax səh. 5

### Avropa ABŞ-a məxsus ödəniş sistemindən çıxmağı planlaşdırır

Bax səh. 6

## 77 yaşlı NATO...



Bax səh. 7

## "OPEC+" neftin bahalaşmasından narahatdır




Bax səh. 6

# Tehrandan zəng

Aprelin 2-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Məsud Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev ölkəmizin İrana göstərdiyi humanitar yardımın davam edəcəyini deyib, yaxın zamanlarda növbəti humanitar yardımın göndəriləcəyini vurğulayıb.

İranda vəziyyətin gərginləşməsindən narahatlığını ifadə edən dövlətimizin başçısı həlak olan İran vətəndaşlarına Allahdan rəhmət diləyib.

Prezident İlham Əliyev qarşıdurmanın tez bir zamanda sona çatmasını arzuladığını bildirib.

Telefon söhbəti zamanı regionda sülhün tezliklə əldə olunmasının zəruriliyi vurğulanıb.



## Azərbaycanın xoş məram və humanizm prinsipinə əsaslanan dəyişməz siyasəti

Hazırda dünya çətin bir dönəmdən keçir. Şərqi Avropada, Yaxın Şərqdə uzanan dəhşətli müharibələrin, qlobal iqlim dəyişmələrinin ağır fəsadları ayrı-ayrı ölkələrin, milyonlarla insanın həyatında çox ciddi şəkildə hiss olunur. Belə kədərli mənzərə fonunda ehtiyacı olan dövlətlərə, dara düşən insanlara kömək göstərilməsi, yardım əli uzadılması həyati zərurətə çevrilib.

Azərbaycan da müharibənin dəhşətlərini yaşayan ölkədir. Respublikamız otuz il ərzində Ermənistanın işğalçılıq siyasəti ilə üz-üzə qalıb. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi düşmənin nəzarəti altına keçmişdi və 1 milyondan artıq soydaşımız öz ev-eşiyini tərk etmək məcburiyyətində qalmışdı. Həmin insanlar vaqonlarda, qəzalı tikililərdə, çadırlarda yaşayırdılar. Bu, əsl humanitar fəlakət idi.

Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir. Bu gün biz qürur duyuruq ki, güclü Azərbaycanın dünyanın ayrı-ayrı regionlarını əhatə edən yardım proqramları uğurla icra edilir və bundan milyonlarla insan faydalanır.

Son dövrlərdə dünyanın üzləşdiyi humanitar böhranlarla əlaqədar çağırışlar fərqli olsa da, Azərbaycanın xoş məram və humanizm prinsiplərinə əsaslanan siyasəti dəyişməz qalıb. Deyə bilərik ki, Azərbaycan hər zaman köməyə, yardıma ehtiyacı olanların yanında yer almağa tələsir. 2019-cu ilin sonlarından başlayan və qısa müddətdə dünyanın 200-dək ölkəsini öz ənginə alan yeni növ koronavirus pandemiyası dövrünü xatırlayaq. Həmin böhranlı dönəmdə Azərbaycan dövləti Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq həm geniş məzmunlu xüsusi sosial proqramlar həyata keçirməklə öz vətəndaşlarını və iqtisadiyyatını qorudu, həm də beynəlxalq səviyyədə humanitar missiya həyata keçirdi. Belə ki, qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Respublikamız əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Təbii ki, bu, ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib.

Uzanan müharibə ilə əlaqədar Ukraynada yaşanan humanitar fəlakət hər kəsə bəllidir. Aktiv döyüş əməliyyatlarının getdiyi bölgələrin milyonlarla sakini doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb. Ölkənin infrastruktur təminatında, xüsusilə də enerji təchizatında vəziyyət kritik dərəcədə ağırdır. Yaranmış çətin durumda Azərbaycan kənarda qalmır. Belə ki, müharibə başlayandan bəri ölkəmizin Ukraynaya yardımı davamlı hal alıb.

Suriyaya dəstək Azərbaycanın humanitar missiyasının daha bir ifadəsidir. Artıq Suriyada yeni dönəm başlayıb. Respublikamız Suriyaya dəstəyini ilk ifadə edən dövlətlər sırasında yer alır. Bu dəstək müxtəlif istiqamətləri əhatə edir. O cümlədən, ölkəmizdən Suriyaya qaz ixracına da start verilib.

## Qonşu İrana yardımlar davam etdiriləcək

Azərbaycan və İran qonşu olmaqla yanaşı, həm də dost ölkələrdirlər. Bu iki dövlətin qarşılıqlı münasibətləri hansısa keçici maraqlardan yaranmayıb. Bunu bir sıra təbii amillər, o cümlədən həm tarixdən gələn ənənələr, həm də bugünkü reallıqlar şərtləndirir.

Hər şeydən əvvəl Azərbaycanla İranın coğrafi bağlılığı var. Respublikamızın ən uzun dövlət sərhədi 765 kilometr olmaqla məhz bu ölkə ilədir. Bu amil də iki ölkə arasında əlaqələrin qurulmasını asanlaşdırır, daşımalarda xərcləri azaldır, vaxtı qısaldır, təhlükəsizliyi təmin edir.

İran həm də o dövlətdir ki, dünya üzrə müstəqil Azərbaycanın hüdudlarından kənarda ən çox azərbaycanlı məhz burada yaşayır. Onlar ta qədimdən İran tarixinin formalaşmasında, bu dövlətin  inkişafında mühüm rol oynayıblar. Bu gün də İranın ictimai-siyasi və mədəni həyatında soydaşlarımızın rolu böyükdür.

Eyni zamanda, son illərdə Azərbaycanla İranın ayrı-ayrı layihələrdə birgə iştirakı kifayət qədər uğurlu olub. İki ölkənin qarşılıqlı əlaqələrində, təbii ki, nəqliyyat layihələri xüsusi rol oynayır. Hazırda iki dost ölkə Şimal-Cənub Dəhlizinin funksionallığının artırılmasına böyük səy göstərir. İki ölkə Araz çayı vasitəsilə bənzərsiz su diplomatiyası həyata keçirir. Hazırda icra mərhələsində olan layihələr tamamlandıqdan sonra ölkələrimiz arasında əlaqələrin genişlənməsinə daha münbit zəmin yaranacaq.

Bu kimi reallıqları nəzərə almaqla Azərbaycan qonşu və dost ölkənin müharibə səbəbindən üzləşdiyi çətinliklərə biganə qalmır. Məlumdur ki, fevralın 28-dən başlayan İran - ABŞ -İsrail müharibəsi bu ölkədə mülki infrastruktura ciddi ziyan vurur, təchizatı çətinləşdirir. Belə vəziyyətdə Azərbaycan özünün humanizm və qonşuluq siyasətinə sadiqliyini nümayiş etdirir. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib. Eyni zamanda, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq respublikamızdan qonşu ölkəyə humanitar yardımlar göndərilir. Respublikamızdan İrana ilk dəfə humanitar yardım martın 10-da yola salınıb. Göndərilən yardıma 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar daxil idi.

Bundan sonra Azərbaycandan Novruz bayramı ərəfəsində qonşu ölkəyə 5 yük avtomobili (TIR) vasitəsilə növbəti humanitar yardım yola salınıb.

Bu  humanitar yardıma ümumi həcmi 82 ton olan müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlar daxil idi.  Humanitar yardımın Novruz bayramı ərəfəsində göndərilməsi nəzərə alınaraq, yük avtomobillərinə müvafiq Novruz sovqatı və bayram məhsulları da əlavə olunub. Eyni zamanda, Azərbaycan bir neçə dəfə Rusiyadan gələn humanitar yardımın İrana göndərilməsinə imkan yaradıb. Telefon söhbəti zamanı dövlətimizin başçısının bildirdiyi kimi, qonşu ölkəyə respublikamızdan humanitar yardımlar göndərilməsi bundan sonra da davam etdiriləcək.

*Mübariz FEYİZLİ*

# Tarixi, mədəni, etnik köklərin formalaşdırdığı təməl...

## İlham Əliyev: Təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq



Uzun illər həm geosiyasi, həm də geoiqtisadi strateji potensialı arxa planda qalan Türkdilli dövlətlər XXI əsrdə yeni inkişaf mərhələsi formalaşdırır. Mövcud reallıqlarda mühüm və möhkəm siyasi birlik formatını mənimsəyən, güc mərkəzi kimi özünü sübut edən Türk Dövlətləri Təşkilatı qısa müddətdə əsaslı inkişaf yolu keçib. Özünü iqtisadi-siyasi konsepsiyası, ideoloji əsasları olan və ən əsası suveren, milli mənafeyə söykənən prinsiplərə malik təşkilat kimi sübut etməyi bacaran Türk Dövlətləri Təşkilatının əldə etdiyi uğurlar saymaqla bitməz. Bu inkişaf tendensiyasında maddi nailiyyətlərdən daha çox mənəvi nailiyyətlər göz oxşayır - vahid Türk dünyası ailəsi prinsiplərinin inkişaf etdirilməsi, qarşılıqlı maraqların qorunması üçün gücün və imkanların səfərbər olunması, fərqli cəhətlərin və ya coğrafiyaların oturuşmuş siyasi birliklərinə qarşı bütün aspektlərdə müqavimətin yaradılması kimi prioritet hədəflər TDT-nin ali qurum statusunu daha da möhkəmləndirir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edərkən TDT-ni bizim ailəmiz adlandırıb. Dövlət başçısı qeyd edib ki, bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək: "Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".

### Türk dünyası bizim ailəmizdir...

Türkdilli ölkələrin birliyini mümkün və zəruri edən fundamental amillərin sayı sadalamaqla bitməz. Tarixi bağlara və yeni çağırışlara əsaslanan cəmiyyətlər və dövlətlər bütün müstəvilərdə yaxınlaşmaq niyyətlərini açıq surətdə ortaya qoyurlar. Statistikaya nəzər saldıqda bu amil diqqət çəkir - Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun 4 üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatın sıraları genişlənib. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. Eləcə də, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti bu möhkəm bağlara malik ailədə təmsil olunurlar. Bu birliyin təməlində sağlam və səmimi münasibətlər, müttəfiqlik və strateji anlaşmanın ən yüksək səviyyədə təmin edilməsi kimi real faktorlar dayanır. Aparılan müzakirələr, münasibətlərin inkişafına istiqamətlənən görüşlər isə bu mühiti daha da gücləndirir - səbəb isə bəllidir. Tarixi birlik, bağlılıq, hətta eynilik bu birliyi daha da qətiyyətli edir. Dövlət başçısı çıxışında qeyd edib ki, xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrimiz prioritet təşkil edir: "Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq".

### Uğurlu gələcək üçün...

Təsadüfi deyil ki, yeni nizamın formalaşdığı qlobal mühitdə son illər ərzində ən mühüm dəyişikliklər məhz TDT coğrafiyası daxilində baş verib. Bu dövrdə regional təhlükəsizliyin təmini istiqamətində yeni arxitekturanın qurulmasından başlayaraq yeni iqtisadi münasibətlərin formalaşması və yeni qlobal əməkdaşlıq platformalarının reallaşmasına qədər vacib və əhəmiyyətli yol qət olunub. Bu mənada beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin formalaşması, regional əməkdaşlıq formatlarının aktuallaşması fonunda adıçəkilən coğrafiyanın yeni, amma əsaslı təşkilatına çevrilməkdə olan TDT getdikcə daha çox strateji çəkisi olan birlik kimi ön plana çıxır. Hazırda TDT qarşısında duran əsas vəzifələr daha qlobal və mahiyyət etibarı ilə strateji anlam daşımaqdadır. İnteqrasiyanın dərinləşdirilməsi və strukturlaşdırılmış əməkdaşlığın təmini, müasir dövrdə artan geosiyasi risklər, regional münaqişələr, enerji və kommunikasiya təhlükəsizliyi kimi məsələlər fonunda müdafiə və təhlükəsizlik sahəsində koordinasiyanın vacibliyi TDT gündəliyinin əsas müzakirə predmeti kimi xarakterizə olunur. Bu sahələr üzrə birgə fəaliyyət isə kollektiv müdafiə mexanizminin gücləndirilməsi ilə yanaşı, həm də Türk dünyasının strateji sabitliyini təmin edən siyasi dayaq yaradır. Prezident İlham Əliyev TDT-nin gələcək fəaliyyətinə toxunaraq qeyd edib ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir: "Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda, tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

### Dünəndən bu günə, bu gündən sabaha gedən yol...

TDT özünəməxsus fərqliliyi ilə seçilən bir təşkilatdır - ənənəvi siyasi və ya coğrafi birlik mahiyyətini daha da irəliyə apararaq etnik köklər üzərində bərqərar olub. Bu isə təşkilata üzv olan ölkələr arasında həmrəyliyi, siyasi dialoqu və koordinasiyanı daha da gücləndirir. Tarixi bağlılığımız bu gün suveren dövlətlərimizin bir-birinə arxa-dayaq olmasına xüsusi təsir göstərir. Məhz bu amil "Türk xətti" adlanan coğrafiyanın son illərdəki yüksək inkişaf tempi əldə etməsində əsaslı rol oynayıb. TDT adı altında fəaliyyəti cəmisi 5 ilə söykənsə də, təşkilat olduqca geniş siyasi potensial nümayiş etdirməkdədir. Hər il keçirilən ənənəvi Zirvə toplantıları, eləcə də, Azərbaycanın təşəbbüsü ilə baş tutan qeyri-rəsmi Zirvə toplantıları təşkilat daxilində konsolidasiyanı daha da möhkəmləndirir. Bunun nəticəsidir ki, ortaq Türk dilinin formalaşdırılması, inteqrasiyanın gücləndirilməsi, siyasi platformalarda vahid prizmadan çıxış edilməsi kimi fundamental prinsiplər ön plana çıxır. Yeni mərhələdə isə qarşıya qoyulan hədəflər daha fərqli, daha qlobal mahiyyətə malikdir. TDT artıq qlobal dünyada hərtərəfli tanınan, gücü, imkanları və potensialı ilə seçilən təşkilatlardan birinə çevrilməkdədir. Ortaya qoyulan səy bunu təsdiqləyir. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil: "Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə Görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq".

Bəli, TDT müasir çağırışları, yeni inkişaf trendlərini, regional bağlılığı və dəyərləri, yüksək iqtisadi-siyasi dialoqu, o cümlədən, humanitar, mədəni inteqrasiyanı özündən birləşdirən bir təşkilatdır. Bizi birləşdirən dəyərlər isə möhkəm təməllərə malikdir. Bu təməl üzərində bərqərar olan birlik uğurlu, sabit gələcək vəd edir...

*Pərviz SADAYOĞLU*

# TDT yeni iqtisadi imkanlar yaradır

## Sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və maraqlara yönələn məram...

Türk dünyasının institusional çərçivədə birləşməsini təmin edən Türk Dövlətləri Təşkilatı son illərdə yalnız siyasi dialoq platforması kimi deyil, həm də getdikcə güclənən iqtisadi əməkdaşlıq məkanı kimi çıxış edir. Üzv ölkələr arasında formalaşan yüksək səviyyəli siyasi dialoq iqtisadi inteqrasiyanın dərinləşməsi üçün əlverişli zəmin yaradır. Bu dialoq çərçivəsində qəbul edilən strateji qərarlar ticarət dövriyyəsinin artırılması, nəqliyyat-logistika bağlantılarının genişləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması kimi konkret iqtisadi hədəflərlə müşayiət olunur.

Xüsusilə Azərbaycan son dövrdə təşkilat daxilində iqtisadi əməkdaşlığın gücləndirilməsi istiqamətində fəal və təşəbbüskar siyasət həyata keçirir. Ölkənin coğrafi mövqeyi və həyata keçirdiyi irimiqyaslı infrastruktur layihələri onu Şərqlə Qərb arasında mühüm tranzit və logistika mərkəzinə çevirib. Bu kontekstdə Bakı yalnız regional deyil, bütövlükdə türk dünyasının iqtisadi inteqrasiyasında açar rol oynayan platforma kimi çıxış edir. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən layihələr üzv dövlətlər arasında qarşılıqlı inteqrasiyanı artırmaqla yanaşı, ümumi iqtisadi məkanın formalaşmasına xidmət edir.

Digər tərəfdən, Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsində aparıcı rol oynayır. Bu əməkdaşlıq, paralel olaraq Azərbaycanın Mərkəzi Asiya birliyinin tamhüquqlu üzvü olması enerji, nəqliyyat və ticarət sahələrində konkret layihələrin daha da irəliyə aparılmasına imkan yaradır. Beləliklə, Türk Dövlətləri Təşkilatı çərçivəsində formalaşan çoxtərəfli və qarşılıqlı faydalı iqtisadi əlaqələr üzv ölkələrin qlobal iqtisadi sistemdə mövqelərini möhkəmləndirməklə yanaşı, regionda dayanıqlı inkişaf üçün yeni imkanlar yaradır.

### Qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır

Yüksəksəviyyəli siyasi-iqtisadi əlaqələr isə özlüyündə həm də sərmayə mühitini daha da stimullaşdırır. Qarşılıqlı sərmayə qoyuluşu artır, birgə invesitisiya imkanları təkmilləşdirilir. Qeyd edilməlidir ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatı üzvü ölkələrə sərmayə qoyuluşu son illərdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsinin əsas istiqamətlərindən birinə çevrilib. Azərbaycan kapitalının iştirakı ilə həyata keçirilən layihələr enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı və sənaye sahələrini əhatə edir. Bu sərmayələr yalnız iqtisadi gəlir məqsədi daşımır, eyni zamanda üzv dövlətlər arasında qarşılıqlı əlaqələri artıraraq vahid iqtisadi məkanın formalaşmasına xidmət edir. Nəticə etibarilə, Azərbaycanın TDT məkanında sərmayə fəallığı iqtisadi inteqrasiyanı gücləndirən və uzunmüddətli inkişaf perspektivlərini təmin edən mühüm amil kimi çıxış edir. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edərkən bildirib ki, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq: "Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır".



### Orta Dəhliz hər birimizin marağına cavab verir...

TDT çərçivəsində iqtisadi və logistika əməkdaşlığı da təşkilatın gələcək möhkəmlənməsinin əsas dayaqlarından biri sayılır. Türk dünyası coğrafiyası - Orta Asiyadan Qafqaza, Anadoludan Avropaya qədər uzanan geniş bir xəritədir və bu ərazidə nəqliyyat, kommunikasiya, enerji və ticarət dəhlizləri baxımından nəhəng potensial mövcuddur. Azərbaycan bu kontekstdə əsas tranzit və inteqrasiya mərkəzidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz TDT ölkələrinin iqtisadi əlaqələrinin genişlənməsi üçün real körpü rolunu oynayır. Bakı - Tbilisi - Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı və "Ələt" Azad İqtisadi Zonasının fəaliyyəti təkcə regionun deyil, Avrasiyanın ticarət xəritəsini yenidən formalaşdırır. Dövlət başçısı çıxışında deyib ki, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir: "Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı, Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta Dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır".

Vurğulandığı kimi, TDT-nin ən əhəmiyyətli dayaq sütünlarından sayılan nəqliyyat-logistika üstünlüyünün mərkəzində Orta Dəhliz dayanır. Bu marşrut Çin və Mərkəzi Asiya ölkələrindən başlayaraq Xəzər dənizi üzərindən Azərbaycan və Türkiyə vasitəsilə Avropaya çıxışı təmin edir. Orta Dəhlizin effektiv fəaliyyəti həm TDT-nin iqtisadi potensialını gücləndirir, həm də Qərb ilə Asiya arasında etibarlı alternativ ticarət yoluna çevrilir. Artıq reallaşması istiqamətində heç bir sual qalmayan Zəngəzur dəhlizi (TRIPP) isə bu iqtisadi körpünün əsas seqmenti qismində çıxış edəcək. Ötən ilin avqustunda reallaşan Vaşinqton Zirvəsində təsdiqlənən Zəngəzur dəhlizi (TRIPP) layihəsi Türk dünyasının birliyinin yeni simvoluna çevrilməkdədir. Bu dəhliz yalnız coğrafi bağlantı deyil, həm də siyasi və mənəvi inteqrasiyanın təzahürü sayılır. Dəhliz Azərbaycanın əsas təşəbbüsü kimi ortaya çıxaraq, Türkiyə ilə Orta Asiya arasındakı quru bağlantını bərpa edir. Bu, həm TDT-nin fiziki inteqrasiyasını təmin edir, həm də qlobal enerji, ticarət və təhlükəsizlik sistemlərində Türk dünyasının rolunu artırır.

### Ciddi və məsuliyyətli mövqe sərgiləyirik...

TDT yeni dünya nizamının ən aparıcı amillərindən biri kimi ön plana çıxmaqdadır. Təşkilat bütün addımlarında yalnız bir hədəfi müəyyənləşdirir - milli maraqlar, qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq mühiti, platforması yaratmaq. Təşkilat həm də qlobal proseslərdə aktiv mövqe tutan iqtisadi güc mərkəzi statusu qazanmaqdadır. Nəqliyyat və enerji dəhlizlərinin genişlənməsi, yaşıl enerji layihələri və rəqəmsal iqtisadiyyat istiqamətində əməkdaşlıq Türk dünyasının gələcək strateji xəttini formalaşdırır. Zəngəzur dəhlizi (TRIPP), Orta Dəhliz və Yaşıl Enerji Qovşağı kimi təşəbbüslər yalnız iqtisadi layihələr deyil, həm də vahid türk strateji məkanının rəmzləridir. Türk Dövlətləri Təşkilatı yeni dövrün reallıqları fonunda həmrəyliyin, qarşılıqlı etimadın və strateji əməkdaşlığın unikal modelinə çevrilir. Prezident İlham Əliyev çıxışında bildirib ki, biz yenə də burada çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik: "Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir".

***P.İSMAYILOV***

---

# Hədəf 2 trilyon dollar...

## TDT ölkələrinin Birgə Bəyanatı iqtisadi-ticari-investisiya həcmlərini artırmaq üçün yeni prioritetləri nəzərdə tutur

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Hökumət başçılarının və Vitse-prezidentinin ikinci görüşü səmərəli və mühüm anlaşmaların əldə olunması ilə yadda qalıb. Görüş çoxtərəfli əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrimizin gücləndirilməsi baxımından çox faydalı platforma kimi xarakterizə oluna bilər. Belə ki, türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat-tranzit, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya, humanitar və bir çox digər sahələrdə əlaqələrin inkişafı üçün mühüm imkanların daha da irəliyə aparılmasını təşviq edən Bakı görüşü TDT dövlətlərinin ikitərəfli və çoxtərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətlərini möhkəmləndirir. Təşkilata üzv ölkələr tərəfindən imzalanan Birgə Bəyanat isə qarşıdakı dövrdə əməkdaşlığın yeni yol xəritəsi hesab edilə bilər.

**Azərbaycan TDT ölkələrinə 22 milyard dollar sərmayə yatırıb**

Türk dünyasında inteqrasiya prosesləri son illər dinamik xarakter alaraq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Türk Dövlətləri Təşkilatının (TDT) institusional əsaslarının möhkəmləndirilməsi, üzv ölkələr arasında qarşılıqlı etimadın artması və ortaq strateji baxışın formalaşması bu prosesin əsas hərəkətverici qüvvələri kimi çıxış edir. Türk dövlətləri arasında ticarət-investisiya əlaqələrinin daha da genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır və əməkdaşlıq hədəflərində ilk yerlərdə duran məsələlərdən biridir. Son illərdə bu istiqamətdə müsbət dinamika müşahidə olunur, tərəflər arasında əmtəə və xammal mübadilələri dayanmadan artır. Türk dövlətlərinin birgə ticarət dövriyyəsi ötən il 45 milyard dollara, əlavə dəyərləri isə 1,5 trlilyon dollara yaxınlaşıb. Bu, onların ümumi ticarət dövriyyəsinin 4 faizə yaxını deməkdir. Ancaq potensial bundan ən azı 10 dəfə böyükdür. Eyni zamanda, əlavə dəyərin ümumi həcmi 2 trilyon dollardan da çoxdur. Ona görə də türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid zəncirdə birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artımaq niyyətindədir.




Yeri gəlmişkən, ötən il Azərbaycanın TDT üzvləri ilə ticarət dövriyyəsi 5 faizdən çox artıb. Eləcə də ölkələr arasında qarşılıqlı investisiya qoyuluşları artmaqdadır. Azərbaycanın tərəfdaş dövlətlərə yatırdığı sərmayələrin ümumi həcmi 22 milyard dollara çatıb.

**Ortaq maliyyə-investisiya xəzinəsi**

TDT ölkələri arasında iqtisadi-investisiya fəallığını təşviq edən mükəmməl strukturlardan biri tərəfdaş ölkələrlə birgə yaradılmış investisiya fondlarıdır. Bu fondlar prioritet sahələr üzrə qarşılıqlı sərmayə qoyuluşunun genişlənməsinə və iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Bu baxımdan həmin iqtisadi baxışı özündə əks etdirən və vahid maliyyə platformasına çevrilən Türk İnvestisiya Fondu artıq 2 ildir ki, fəaliyyət göstərir. 500 milyon dollar portfeli olan fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya Fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Yeni sərmayə xətləri həm dövlət, həm də özəl sektoru nəzərdə tutur. Bu məqsədlə Bakı görüşündə fondun investisiya portfelinin ən azı 1 milyard dollara çatdırılması barədə razılıq əldə olunub.

**Orta Dəhliz qlobal logistikanın ən səmərəli nəqliyyat arteriyasıdır**

TDT-nin ortaq nəqliyyat bloku olan Orta Dəhliz isə təkcə bu bölgənin deyil, ümumilikdə, qlobal logistikanın ən səmərəli və axıcı nəqliyyat arteriyasıdır. Türk ölkələrinin coğrafi hüdudlarını daha çox əhatə edən bu dəhliz dayanmadan öz imkan və daşıyıcılıq potensialını yüksəldir. Ötən il TDT coğrafiyasında Orta Dəhlizlə yükdaşımaların həcmi 4,7 milyon tona çatıb və bu rəqəmin 2027-ci ilə qədər 10 milyon tona yüksələcəyi gözlənir. Orta Dəhlizin genişləndirilməsi və Zəngəzur xəttinin inteqrasiyasının gerçəkləşməsi üzv ölkələrin potensialdan daha səmərəli istifadə etmək üçün yeni impulslar yaradacaq, nəqliyyat bağlantılarının inkişafı və tranzit imkanlarının genişləndirilməsi qlobal logistikanın strateji əhəmiyyətini artıracaq.

Eləcə də enerji sahəsində əməkdaşlıq yeni enerji xəritəsini formalaşdırır. Türk dövlətlərinin böyük bir qismi neft, qaz, "yaşıl enerji" potensialına görə, regionun əsas mənbə landşaftını yaradıb və bu amillər hazırda qlobal karbohidrogen ehtiyaclarının və bərpaolunan enerji tədarüklərinin artması fonunda TDT-nin enerji ittifaqını da gücləndirir.

**İqtisadi Tərəfdaşlıq üzrə Daimi Şura yaradılır**

Üzv ölkələr arasında hərtərəfli əməkdaşlıq üçün böyük potensial mövcududur. Hazırda TDT üzvləri 58 müxtəlif sahədə əməkdaşlıq mexanizmləri tətbiq edir, ancaq bu iqtisadi-ticari-investisiya bölmələri daha çoxşaxəli və çoxistiqamətlidir. Ona görə də, həmin potensialları daha da üzə çıxarmaq və səfərbər etmək üçün çevik institusional strukturun formalaşdırılması istisna olunmur. Bu baxımdan əsas hədfələrdən biri kimi Türk Dövlətləri Təşkilatının İqtisadi Tərəfdaşlıq üzrə Daimi Şurasının təsis olunması nəzərdə tutulur. Yeni təsisatın yaradılmasını üzv dövlətlər yekdilliklə dəstəkləyir və işlək fəaliyyət mexanizminin qısa zamanda təsdiq edilməsi istisna deyil.

Sənaye əməkdaşlığı və strateji ehtiyatlar sahəsində əməkdaşlığın inkişafı və qarşılıqlı fəaliyyətin bir mərkəzdə birləşdirilməsi də əsas istiqamətlərdən biridir. Bu çərçivəyə əsasən, Türk Dövlətlərinin Sənaye İttifaqının qurulması, o cümlədən tammərhələli istehsalat dəyər zəncirlərinin yaradılmasına yönəlmiş strateji prioritetlərdən biri kimi diqqətdədir. Digər bir hədəf TDT ölkələrinin Mərkəzi bankları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, maliyyə sabitliyinin təmin olunması, ödəniş sistemlərinin inkişafı, maliyyə və rəqəmsal texnologiyaların tətbiqi və digər sahələrdə həyata keçirilən siyasətlərin vahid platformada əlaqələndirilməsidir. Eləcə də rəqəmsal bank platforması hesab edilən Fintex Alyansı çərçivəsində maliyyə texnologiyalarının inkişafı, qanunvericilik və tənzimləmə, maliyyə inklüzivliyinin artırılması, startap ekosisteminin dəstəklənməsi, beynəlxalq ödənişlərin və köçürmələrin asanlaşdırılması, kibertəhlükəsizlik və digər birgə layihələrin həyata keçirilməsi planlaşdırılır. Ümumi bazarların yaradılması və milli valyutalardan istifadə məsələləri də nəzərdən keçirilir.

**"TDT+" formatı aktuallaşır**

Hazırda dünyada geosiyasi və geoiqtisadi meyillər yeni transformasiyalarla müşahidə olunmaqdadır, türk ölkələrinin yerləşdiyi və ətraf regionlarda çox ciddi çağırışlar meydana çıxır. TDT-nin öz hədəf prinsiplərinə doğru irəliləməsi və dünyadakı mövcud vəziyyət, eyni zamanda digər geosiyasi reallığı da ehtiva edir. Müşahidə edilən yeni vəziyyət təşkilat çərçivəsində "TDT+" formatının aktuallığını da artırır. Məhz bu kritik ssenarilər və artan qlobal tələbatlar səbəbindən TDT ölkələri iqtisadi əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı ticarət həcmini artırmaq üçün səyləri gücləndirməli, iqtisadi bağlantıları asanlaşdıran institusional mexanizmlər, prefernsial ticarət qaydaları, logistika zəncirlərini inkişaf etdirən rəqəmsal həllər tətbiq etmək barədə düşünür. Ortamüddətli dövrün hədəflərinə də birgə səylərlə nail olmaq mümkündür.

Beləliklə, Bakı görüşü və imzalanan Birgə Bəyanat Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, iqtisadi-ticari əlaqələrin inkişafı, nəqliyyat və enerji sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi, həmçinin digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı strateji hədəflərə çatmaqda yeni mərhələ açacaq.

***E.CƏFƏRLİ***






# Aprel qələbəsi: Lələtəpədən Xankəndiyə...

Müasir tariximizin əlamətdar səhifələrindən biri də məhz aprelin 4-də yazılıb. Söhbət 2016-cı il aprelin əvvəlində başlayan və tarixə də "Aprel döyüşləri" adı ilə düşən dörd günlük savaşın müzəffər Ordumuzun şanlı zəfəri ilə başa çatmasından gedir.

**Dörd günlük müharibədə 320-dən artıq düşmən hərbçisi məhv edildi. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Eyni zamanda, düşmənin Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və bir neçə hərbi hissəsi məhv edildi. Azərbaycan Ordusu Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı qazandı. Aprel döyüşləri nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı**

Tarixin bu günündə - aprelin 4-də qazanılan Qələbə xalqımızın yenilməz ruhunu, işğal faktı ilə heç vaxt barışmayacağını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan dövlətinin qətiyyətli siyasi iradəsini, Ordumuzun gücünü bütün dünyaya göstərdi. 4 günlük Aprel döyüşlərində qazanılan Qələbə sayəsində ay-ulduzlu bayrağımız Lələtəpə yüksəkliyində ucaldı. Bundan sonra zəfərlər daim bizimlə oldu...

**Tarixi Zəfərlə yekunlaşan sürətli əks-hücum əməliyyatı**

Havadarlarının dəstəyinə arxalanan Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasətinə ötən əsrin doxsanıncı illərinin əvvəllərindən başlamışdı. O dövrdə Azərbaycanda daxili vəziyyət stabil deyildi, ayrı-ayrı siyasi qüvvələr hakimiyyətə gəlmək uğrunda qeyri-legitim yollarla mübarizə aparırdılar. Həmçinin iqtisadiyyat tamamilə dağılmışdı, sosial durum getdikcə ağırlaşırdı. Məkrli düşmən də bundan sui-istifadə etməklə torpaqlarımızın təxminən 20 faizini öz nəzarəti altına keçirməyə nail oldu.

İşğalçılıq siyasətinə görə cəzalandırılmayan Ermənistan bundan ruhlanaraq yeni ərazilər zəbt etmək niyyətinə düşmüşdü və bu məqsədlə vaxtaşırı keçmiş təmas xətti boyunca təxribatlara əl atırdı. 1994-cü ildə imzalanan atəşkəs müqaviləsindən sonra ən şiddətli toqquşmalar hesab olunan Aprel döyüşləri də Ermənistanın davamlı təxribatları nəticəsində baş verdi. 2016-cı il mart ayının ortalarından başlayaraq keçmiş təmas xətti, həmçinin iki ölkə arasındakı şərti sərhədlər boyunca vəziyyət hədsiz dərəcədə gərginləşmişdi. Gah bu, gah da digər bir ünvanda mövqelərimiz daim atəşə tutulurdu. Düşmən belə təxribatlardan birini 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədə törətdi. Ancaq artıq vəziyyət dəyişmişdi. Azərbaycan atəşkəsi gözləməklə, sülh danışıqlarında hər zaman fəal şəkildə iştirak etməklə yanaşı, həm də öz iqtisadiyyatını gücləndirmiş və bu əsasda müasir ordu quruculuğuna nail olmuşdu. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında formalaşan bu ordu qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirməyə qadir idi. Bunu Aprel döyüşləri bir daha təsdiqlədi. Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatları ilə düşmən təxribatının qarşısını qətiyyətlə aldı. Dörd gün davam edən müharibədə Silahlı Qüvvələrimiz nəyə qadir olduğunu düşmənə göstərdi.

Aprelin 4-də yekunlaşan döyüşlər nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Madagiz kəndləri istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Lələtəpə yüksəkliyinin və onun ətrafındakı strateji baxımdan mühüm əhəmiyyət daşıyan ərazilərin ələ keçirilməsi ilə Ordumuz geniş coğrafiyada düşmənin atəş məntəqələrinə nəzarət etmək imkanı qazandı. Qısa müddətdə bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mühəndis-istehkam məntəqələri quruldu. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Verilən məlumatlara görə, dörd günlük müharibədə 320-dən artıq düşmən hərbçisi məhv edildi. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Eyni zamanda, düşmənin Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və bir neçə hərbi hissəsi məhv edildi. Azərbaycan Ordusu Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı qazandı. Aprel döyüşləri nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı.

**Düşmənin yaratdığı "məğlubedilməz ordu" mifi tar-mar oldu**

Uzun illər ərzində Ermənistan cəmiyyətinə miflərin hakim kəsildiyi hər kəsə bəllidir. Ermənilər bir növ kilsədən, xaricdəki lobbi dairələrindən gələn və reallıqla heç bir əlaqəsi olmayan zərərli ideyaların əsirinə çevrilmişdilər. Onlara həmçinin "məğlubedilməz ordu" mifi aşılanmışdı. Bu uydurma ideyaya inanan ermənilər elə güman edirdilər ki, Ermənistan ordusu Bakıya qədər irəliləyə bilər. Bəli, bu gün Ermənistan ordusunun çoxlu sayda hərbi texnikası Azərbaycan paytaxtındadır. Lakin onlar İkinci Qarabağ müharibəsində qənimət kimi götürülən texnikalardır və bu da ermənilərin "yenilməz ordu" mifinin iflasının biabırçı təzahürüdür.

Düşmənin yaratdığı "məğlubedilməz ordu" mifi ilk dəfə məhz dörd günlük Aprel döyüşlərində tar-mar oldu. Aprel döyüşlərindən sonra Ermənistanın həm silahlı qüvvələri, həm də siyasi rəhbərliyi çıxılmaz durumda qalmışdı. İndiyədək Ermənistanın siyasi-hərbi rəhbərliyi daim cəmiyyətə nağıllar danışır, vədlər verirdi. Aprel döyüşləri o reallığı ortaya qoydu ki, genişmiqyaslı müharibə başlayacağı təqdirdə, Ermənistan ordusu Azərbaycanın Silahlı Qüvvələri qarşısında tab gətirə bilməyəcək.

Aprel döyüşlərində əsgər və zabitlərimizin şücaəti ən yüksək qiymətə layiq idi. Prezident İlham Əliyevin 2016-cı il aprelin 19-da imzaladığı müvafiq sərəncamlarla Silahlı Qüvvələrimizin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adına, 7 üzvü "Azərbaycan Bayrağı" ordeninə, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 19 üzvü "Vətən uğrunda" medalına, 43 üzvü "İgidliyə görə" medalına, 45 üzvü "Hərbi xidmətlərə görə" medalına layiq görülüb, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

**Aprel döyüşlərində əsgər və zabitlərimizin şücaəti ən yüksək qiymətə layiq idi. Prezident İlham Əliyevin 2016-cı il aprelin 19-da imzaladığı müvafiq sərəncamlarla Silahlı Qüvvələrimizin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adına, 7 üzvü "Azərbaycan Bayrağı" ordeninə, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 19 üzvü "Vətən uğrunda" medalına, 43 üzvü "İgidliyə görə" medalına, 45 üzvü "Hərbi xidmətlərə görə" medalına layiq görülüb, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb**

**Xankəndidə əzəmətlə dalğalanan Azərbaycan bayrağı**

Ordumuz Aprel döyüşlərindən sonra 2020-ci ildə Vətən müharibəsində qazanılan Böyük Zəfərə doğru irəlilədi. Vətən müharibəsi başlayanadək Silahlı Qüvvələrimiz daha bir neçə dəfə öz gücünü düşmənə göstərdi. Bu sırada cünnüt döyüşlərini, Tovuz əməliyyatını misal göstərə bilərik. Ancaq Ermənistan bu döyüşlərdə uğradığı acınacaqlı məğlubiyyətdən özü üçün lazımi nəticələr çıxarmadı. Öz havadarlarına arxalanan düşmən 2020-ci il sentyabrın 27-də keçmiş təmas xətti boyunca növbəti dəfə genişmiqyaslı təxribata əl atdı. Bu dəfə Azərbaycan Ordusunun düşmənə cavabı daha qəti və sərt oldu. Ermənistanın heç bir motivasiyası olmayan hərbi birləşmələri Ordumuzun qarşısında duruş gətirə bilmədi və cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Beləliklə, Aprel döyüşlərində zəfər yoluna çıxan Azərbaycan 44 günlük müharibədə özünün ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi.

Bundan sonra daha bir böyük zəfərimizi 2023-cü il sentyabrın 19- 20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında qazandıq. Bu, Azərbaycan Ordusunun gücünün növbəti təzahürü oldu. Cəmi bir gün davam edən antiterror tədbirlərinin nəticəsi olaraq separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. 23 saatlıq antiterror əməliyyatı nəticəsində bütün Qarabağda suverenliyimiz tam bərpa edildi.

Qarabağ ərazisində suverenliyimiz lokal xarakterli əməliyyatın nəticələrinə uyğun olaraq tam təmin ediləndən sonra Azərbaycan cəmiyyəti Xankəndidə və digər ərazilərimizdə bayrağımızın ucaldılmasını səbirsizliklə gözləyirdi. Nəyahət, o şərəfli və tarixi gün də gəldi. Prezident İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızın ucaldılmasının sevincini bizlərə tarixi gündə - Onun Prezident seçilməsinin 20-ci ilinin tamam olduğu 15 oktyabr 2023-cü ildə yaşatdı.

***Mübariz ABDULLAYEV***

# "Heydər Əliyev ideyaları müasir Azərbaycanın Zəfər yoludur"



Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Zəngilan rayon təşkilatının birgə təşkilatçılığı ilə rayon təşkilatının təsis edilməsinin 32-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyaları müasir Azərbaycanın Zəfər yoludur" mövzusunda tədbir keçirilib.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov, YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının məsul əməkdaşı Elmar Məmmədov, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və partiya fəalları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Zəngilan şəhər Şəhidlər Xiyabanını və müasir müstəqil Azərbaycanın memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra rayon ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin vətənpərvərlik mövzusunda ərsəyə gətirdikləri rəsmlərdən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə geniş məruzə ilə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi arenasında milli maraqların ən sadiq müdafiəçisi missiyasını uğurla yerinə yetirib. Sədr vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbələr partiyanın cəmiyyətdəki monolit birliyini və nüfuzunu daha da möhkəmləndirib. O, rayon təşkilatının gələcək fəaliyyətində gənclərin milli-ideoloji tərbiyəsinin strateji istiqamətlərdən biri olduğunu vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov YAP-ın yaranma tarixini müstəqil dövlətçiliyimizin xilası baxımından mühüm dönüş nöqtəsi kimi səciyyələndirib. Millət vəkili qeyd edib ki, məhz Ulu Öndər Heydər Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində Azərbaycan 1990-cı illərin əvvəllərində yaşanan dərin böhrandan çıxaraq misilsiz tərəqqi yoluna qədəm qoyub. O, işğaldan azad edilmiş Zəngilanda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərini dövlətimizin iqtisadi gücünün və quruculuq siyasətinin real ifadəsi kimi dəyərləndirib.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında partiyanın formalaşmasında ziyalıların və siyasi xadimlərin təşəbbüsü ilə yaradılmış "91-lər" hərəkatının üzvlərinin fədakarlığını xüsusi vurğulayıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası siyasi təşkilat olaraq xalqın sabaha olan inamını təcəssüm etdirir. V.Novruzov bildirib ki, partiyanın tarixi uğurlarının təməlində ideoloji sabitlik dayanır və dövlətçilik təcrübəsinə malik veteranlarla gənc nəsil arasındakı qarşılıqlı əməkdaşlığın davamlılığı xüsusi əhəmiyyət daşıyır.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası cəmiyyətdə etimad və dayanıqlı sabitlik mühiti formalaşdırıb. Qeyd olunub ki, bu etimad hər bir milli hədəfdə özünü doğruldur. Belə ki, partiyanın uğurlu fəaliyyəti siyasi idarəetmə ilə yanaşı, dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsində və milli-mənəvi dəyərlərin qorunmasında həlledici rol oynayır.




YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva partiyanın xilaskarlıq missiyasından danışaraq bildirib ki, düzgün müəyyən edilmiş strateji hədəflər artıq Azərbaycanı qlobal arenada suveren və güclü mövqeyə malik dövlətə çevirib. O, gənclərin partiyanın ictimai-siyasi həyatında fəallığını yüksək dəyərləndirərək, bu dinamikanın milli-mənəvi dəyərlərin hifz olunmasında əsas hərəkətverici qüvvə olduğunu söyləyib.

YAP Mərkəzi Aparatının məsul əməkdaşı Elmar Məmmədov Yeni Azərbaycan Partiyasının regionun aparıcı siyasi təşkilatı kimi böyük nüfuz qazandığını bildirib. O qeyd edib ki, əldə olunan hər bir uğurun əsasında xalqın öz Liderinə olan sonsuz inamı dayanır. Vurğulanıb ki, YAP Zəngilan rayon təşkilatı ideoloji işin təşkilində səmərəli fəaliyyət göstərir.

Partiya veteranı Asif Orucov Yeni Azərbaycan Partiyasının 750 mindən çox üzvünün olduğunu bildirərək, xalqımızın Zəfər tarixində Heydər Əliyev ideyaları əsasında yetişən gənclərin müstəsna rol oynadığını diqqətə çatdırıb. O, xalq-iqtidar-ordu birliyinin dövlətimizin əbədi müstəqilliyinin əsas təminatçısı olduğunu ifadə edib.

Birinci Qarabağ müharibəsi qazisi Zakif Abbasov çıxışında şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından danışıb. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddət ərzində işğal altında qalmış torpaqlarını azad edib.

Daha sonra rayonun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup şəxsə fəxri fərman və hədiyyələr, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə isə partiya vəsiqələri təqdim edilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# BMT müstəvisində növbəti uğur

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) müstəvisində aktivliyi də xüsusi vurğulanmalıdır. Bunun nəticəsidir ki, ölkəmiz ən böyük beynəlxalq təşkilatın strukturlarında fəal təmsil olunur. Məsələn, ötən il BMT-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikası BMT-nin Əhali və İnkişaf Komissiyasının (CPD) 2026-2030-cu illər üzrə və Sosial İnkişaf Komissiyasının (CsocD) 2025-2029-cu illər üzrə üzvlüyünə seçilib. Hər iki komissiya BMT-nin iqtisadi və sosial məsələləri üzrə əsas orqanı olan ECOSOC-un funksional komissiyalarıdır. Hazırda ölkəmiz BMT ECOSOC-un 2025-2027-ci illər üzrə üzvləri arasında yer alır.



CPD əhali dinamikasının, demoqrafik dəyişikliklərin, miqrasiya və urbanizasiyanın, eləcə də dayanıqlı inkişafla bağlı beynəlxalq müstəvidə yanaşmaların formalaşdırılmasına məsuldur. CsocD isə sosial siyasət, sosial müdafiə sistemləri, həssas qrupların hüquqları və rifahın artırılması kimi istiqamətlər üzrə fəaliyyət göstərir. Sözügedən BMT komissiyalarında təmsilçilik ölkəmizin sosial müdafiə islahatları, dövlət xidmətlərinin innovasiyası, yoxsulluğun aradan qaldırılması üzrə uğurları və əhalinin rifahının yüksəldilməsi sahəsindəki prioritetlərinin beynəlxalq müstəvidə təqdim edilməsinə, eləcə də BMT-nin fəaliyyətlərinə töhfə və əməkdaşlıq

## Ölkəmiz BMT strukturlarında fəal təmsil olunur

imkanlarının gücləndirilməsinə imkan verəcək. Bu, böyük etimaddır və beynəlxalq birliyin ölkəmizə olan rəğbətini təsdiqləyir.

Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sənədlər də BMT strukturlarında dəstəklənir. Belə ki, bugünlərdə Cenevrə şəhərində BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, sözügedən qətnaməyə əsas həmmüəllif ölkələr olan Türkiyə, Gürcüstan, Ekvador, Keniya, Malayziya və Tailand ilə yanaşı, Avropa İttifaqına üzv olan dövlətlər, Birləşmiş Krallıq, Kanada, Yaponiya, Avstraliya, Braziliya, Efiopiya, həmçinin Afrika, Asiya və Amerika qitələrini təmsil edən bir sıra digər dövlətlər milli qisimdə, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı dövlətləri qrup şəklində həmmüəllif kimi qoşulublar.

Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir. Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Davamlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini vurğulayır. Qətnamədə rəqəmsal texnologiyaların, həmçinin süni intellekt sistemlərinin korrupsiyanın qarşısının alınmasında və onunla mübarizədə oynadığı mühüm rola, hər kəsə dövlət xidmətlərinin bərabər çatdırılmasına, həmçinin təbii fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa işləri kontekstində dövlət xidmətlərinin əhəmiyyəti məsələlərinə diqqət ayrılır.

Sənəd 2015-ci ildə "ASAN xidmət"in təltif edildiyi "BMT-nin Dövlət Xidmətləri Mükafatı"nı dövlət xidmətlərinin göstərilməsi sahəsində dünyanın ən nüfuzlu mükafatı olaraq təsbit edir, eyni zamanda, BMT qurumlarını və digər beynəlxalq təşkilatları müvafiq sahədə mövcud uğurlu təcrübələri təşviq etməyə və mükafatlandırmağa davam etməyə çağırır. Qətnamədə, həmçinin İnsan Hüquqları Şurasının 65-ci sessiyasında fəlakətlərə hazırlıq, cavab tədbirləri və bərpa kontekstləri də daxil olmaqla dövlət xidmətlərinin çatdırılmasının insan hüquqlarının təşviqi və qorunmasında, həmçinin Davamlı İnkişaf Məqsədlərinə nail olunmasında rolu mövzusunda panel müzakirəsinin

## Azərbaycanın təşəbbüsü ilə qətnamə qəbul olunub

keçirilməsi qərara alınır.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə daha öncə 2018 və 2023-cü illərdə BMT-nin İnsan Hüquqları Şurasında konsensusla qəbul edilmiş 37/7 və 52/8 nömrəli eyniadlı qətnamələrin əsasında irəli sürülmüş cari qətnamənin yekdilliklə qəbul edilməsi və ona çox sayda dövlətlərin həmmüəllif qismində qoşulması, ölkəmizin dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması sahəsində müsbət təcrübəsinə və bu sahədə beynəlxalq müstəvidə öncül roluna beynəlxalq ictimaiyyət tərəfindən göstərilən dəstəyin bariz göstəricisidir.

Bütün bunlarla yanaşı, Azərbaycan beynəlxalq ictimaiyyəti narahat edən müxtəlif məsələlər ilə əlaqədar BMT səviyyəsində qətnamələr də irəli sürüb. Məsələn, BMT-nin İnsan Hüquqları Komissiyasının (CHR) 58-60-cı sessiyalarında Azərbaycan nümayəndə heyəti tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə layihəsi təklif edilib. CHR tərəfindən qəbul edilmiş bu qətnamənin müddəaları beynəlxalq humanitar hüquq normaları əsasında qəbul edilməklə, beynəlxalq ictimaiyyətin diqqətini bu mühüm məsələyə yönəltmək məqsədi daşıyır.

Ötən illər ərzində Azərbaycanın BMT çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında, onun qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı da xüsusilə qeyd edilməlidir. Bu baxımdan respublikamız BMT TŞ-nin Terrorizmə qarşı Komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin komitəyə Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim edib.

Bütövlükdə, ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Bununla belə, Azərbaycan BMT-nin beynəlxalq müstəvidə təhdid və problemlərə qarşı lazımi səviyyədə mübarizə apara bilməsi üçün təşkilat çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir.

***Nardar BAYRAMLI***

---

### Mərkəzi Bank təmkinli pul siyasəti yürütməkdədir

# Uçot dərəcəsi dəyişmədi

Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə aprelin 2-dən etibarən faiz dəhlizinin bütün parametrləri dəyişməz saxlanılıb. Belə ki, uçot dərəcəsi 6,5 faiz səviyyəsində müəyyən edilib. Faiz dəhlizinin aşağı həddi 5,5, dəhlizin yuxarı həddi isə 7,5 faiz həddində saxlanılıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib.

Faiz dəhlizi ilə bağlı qərar qəbul olunarkən faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf intervalı (4±2 faiz) ilə uzlaşması, yaxın regionda artan geosiyasi gərginliklərin yaratdığı risklər, qlobal və daxili maliyyə bazarlarındakı mövcud vəziyyət, daxili makroiqtisadi meyillər, eləcə də pul siyasəti qərarlarının real sektora ötürücülüyünün xüsusiyyətləri əsas götürülüb.

## İnflyasiya daha çox xarici amillərin təsiri altında formalaşır

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bildirir ki, inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. Hazırda illik inflyasiya hədəf daxilindədir. 2026-cı ilin fevralında 12 aylıq inflyasiya 5,7 faiz təşkil edib. Müşahidə olunan inflyasiya, əsasən xarici mənşəli xərc amillərinin təsiri altında formalaşır. Belə ki, qlobal iqtisadi aktivliyin zəifləməsi, eləcə də qlobal əmtəə, enerji və ərzaq qiymətlərində yüksəlmələrin baş verməsi ölkəyə inflyasiya idxalında təsiredici rol oynayıb. Təhlillərə əsasən, son aylarda xarici amillər üzrə qeyri-müəyyənliklər qalmaqla, qiymət indeksi risklərini aktual saxlayır.

Yeri gəlmişkən, Beynəlxalq Valyuta Fondunun və digər agentliklərin məlumatlarına görə, 2026-cı ilin birinci rübündə əmtəə qiymətləri indeksi illik 0,9 faiz, o cümlədən ərzaq qiymətləri indeksi cüzi artıb. Məhz bu amillər qlobal mühitdə yeni qiymət artımları dalğasına səbəb olur, Mərkəzi Bankın bu prosesləri nəzərə alaraq müvafiq çərçivədə addımlar atacağı istisna deyil.

## Valyuta bazarında vəziyyət əlverişli olaraq qalır

Aparılan dəyərləndirmələr göstərir ki, cari ilin ötən dövründə nağd və qeyri-nağd seqmentlər əhatə olunmaqla ümumilikdə valyuta bazarında təklif tələbi üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin azalmaqda davam etməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın fundamentində dayanan xarici sektor göstəriciləri və valyuta bazarında vəziyyət əlverişli olaraq qalır. 2026-cı ilin yanvar-fevral aylarında mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını 51 milyon ABŞ dolları üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 2,8 faiz bəndi azalaraq 2026-cı ilin fevralında 27,7 faizə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Bu şəraitdə 2026-cı ilin ilk rübündə Mərkəzi Bankın valyuta ehtiyatları 1,2 faiz artaraq 11,7 milyard dollara çatıb.

Valyuta bazarında tarazlığın əsas amili olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Gömrük statistikasına əsasən, 2026-cı ilin yanvar-fevral aylarında ölkənin xarici ticarətində 1,1 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. Mərkəzi Bankın 2026 və 2027-ci illərin sonuna cari əməliyyatlar hesabının profisitli olacağı ilə bağlı proqnozu dəyişməz qalır. Son vaxtlar əsas ixrac məhsulları üzrə qiymətlərin yüksəlməsi cari əməliyyatlar hesabı profisitinin artma istiqamətində dəyişmə ehtimalı yaradır.

Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilir. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində, uçot dərəcəsinə yaxın hərəkət edir. Ötən iclasdan bəri gəlirlilik əyrisində və Mərkəzi Bankın notları üzrə gəlirlilikdə də azalmalar baş verib. Mərkəzi Bank, əsasən 1 həftəlik açıq bazar əməliyyatları ilə pul siyasətindən kənar amillərin təsirini minimallaşdırılıb.



## İnflyasiya ilə mübarizə tədbirləri davam etdiriləcək

Mərkəzi Bank qarşıdakı aylarda inflyasiya risklərinin qalacağını istisna etmir. Qiymətləndirmələrə görə, regionda gərginliyin kəskin fazaya keçməsi qlobal əmtəə və maliyyə bazarlarında qiymət və indekslərin dəyişkənliyini yüksəltməkdədir. Bu şəraitdə əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Belə ki, qlobal neft-qaz təchizat zəncirlərində pozuntuların yaranması, enerji məhsullarının qiymətinin artımı və logistika xərclərinin yüksəlməsi ticarət tərəfdaşlarında inflyasiyanın artımına səbəb ola bilər. İdxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi riski ticarət tərəfdaşlarında inflyasiya prosesləri ilə yanaşı, nominal effektiv məzənnənin dinamikasından da asılı olacaqdır. Daxili risk faktorları arasında təklif - xərc amilləri mühüm olaraq qalır.

Bu ssenariyə uyğun olaraq Mərkəzi Bank 2026-cı ilin ikinci rübü və ümumilikdə il ərzində müxtəlif ssenarilər üzrə qiymətləndirmələr apararaq antiinflyasiya xarakterli pul siyasətini və inflyasiyaya təsir imkanlarını artırmaq istiqamətində tədbirlərini davam etdirəcək. İnflyasiya proqnozunun hədəfdən çıxması riski yarandığı təqdirdə, adekvat siyasət addımları atılacaq. Əsas məqsəd inflyasiyanın birrəqəmli həddə saxlanılmaqla həm də uçot siyasətini sabit saxlamaqdır. Bu amillər nəzərə alınmaqla, uçot dərəcəsi ilə bağlı növbəti qərarlar yenə də xarici və daxili amillərə uyğun olaraq müəyyənləşəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək.

***E.CƏFƏRLİ***

# “OPEC+” neftin bahalaşmasından narahatdır

## Alyans üzvləri qiymət sabitliyi üçün bazara daha çox neft çıxarmaqda qərarlıdır

“OPEC+” ölkələrinin aprelin 5-də keçiriləcək iclasında yeni hasilat kvotası və hasilatın artırılması nəzərdə tutulur. İclasda bölgədəki vəziyyətin yaratdığı risklər fonunda neft tədarükü ilə bağlı fraqmentasiyaların müzakirəsi və yuxarı enerji qiymətlərinin qarşısını almaq üçün istehsal kvotalarının yenidən müəyyən edilməsi müzakirə olunacaq. Təşkilata üzv ölkələrin enerji nazirləri və milli neft korporasiyalarının rəhbərləri Hörmüz boğazının qapadılması nəticəsində baş verən çətinliklərin həlli yollarını da nəzərdən keçirmək fikrindədir. “OPEC+” ölkələri tankerlərlə daşınmaların bərpa ediləcəyi təqdirdə tədarükü yenə də artırmaqda qərarlı olduqlarını bildirir.

Qeyd edək ki, təşkilat üzvləri ötən il neft hasilatı və tədarükünü azaltmaq və ya sabit saxlamaq yönündə qərarlar qəbul edib. Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman rəsmiləri 2025-ci il noyabrın 30-da keçirilən videokonfrans formatında görüşdə neft hasilatına könüllü düzəlişlər edilməsi (azaldılması) ilə bağlı razılığa gəliblər. 2026-cı il yanvarın 4-də keçirilən görüşdə isə noyabrda qəbul edilmiş qərara sadiq qalınması və neft hasilatının sabit saxlanılması barədə razılıq əldə olunub. Ümumiyyətlə, son 3 ildə “OPEC+” ölkələrinin nüamayəndələri sabit qlobal iqtisadi perspektivlər və mövcud sağlam bazar fundamentallarını nəzərə amaqla, istehsalın gündəlik həcminin 1,65 milyon barel azaldıb. Bu, neftin qiymətinin ucuzlaşmasının qarşısıbı alıb və yaxud sabit indeksin (70-90 dollar) qorunub saxlanmasını təmin edib. Regionda baş verən son hadisələrdən sonra kəskin neft qiymətləri fonunda hasilatçı ölkələr kvota ilə bağlı könüllü düzəlişlər edərək aprel ayından sutkalıq neft hasilatını 206 min barel artırıblar. Bu qərar qiymətlərin artmasının qarşısını almaq niyyəti güdür.

### Səkkizlik ölkələrinin “B” planı

Ümumiyyətlə, “OPEC+” alyansına daxil olan 8 ölkə - Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Küveyt, Qazaxıstan, Əlcəzair və Oman davamlı olaraq qlobal bazarın konyukturasına və tələbata uyğun olaraq hasilat həcmləri barədə düzəlişlər edir. Neft ucuzlaşanda hasilat azaldılır, bahalaşanda isə artırılır. Aprelin 5-də keçiriləcək görüşün də məqsədi neft qiymətlərinin yüksək indeksləri fonunda hasilatın artırılmasıdır. Hörmüz boğazının qapalı olması dünya bazarına lazımi həcmdə neft çıxarılmasına mane olduğundan alyans üzvləri alternativ logistika xətti olan Səudiyyə Ərəbistanının ərazisindən keçən marşrutla əlavə neft tədarük etməyi planlaşdırır.

Xatırladaq ki, gündəlik qlobal neft tədarükünün (104 milyon barel) təxminən 40 faizi “OPEC+” ölkələrinin payına düşür ki, xam neftin böyük hissəsi alyansın həmin 8 ölkəsinə məxsusdur. Alyans üzvləri hasilatı ən azı 200 min barel yenidən artırmağı düşünür. Səkkizlik ölkələri tərəfindən müxtəlif vaxtlarda qiymət riskləri yarandığı zaman tələbatın azaldılması və ya çoxaldılması qısa zamanda qiymətlərə də təsir edir. Ehtimallara görə, alyansın “B” planı üzrə qərarından sonra dünya birjalarında neftin qismən ucuzlaşması baş verəcək. Gözləntilərə əsasən, “Brent” markalı neftin 1 barelinin qiyməti ən azı 4-5 dollar aşağı düşəcək.

### Optimal qiymət 80 dollar hesab edilir

“OPEC+” alyansının qərarlarını Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və müttəfiqləri də hər zaman anlayışla qarşılayır. Çünki həmin ölkələr də son bir ayda daim dəyişən qiymət əmsallarından narahatdır. Nəzərə alsaq ki, Azərbaycan da daxil olmaqla, əksər neft ixracatçıları investisiya siyasətinə uyğun olaraq, aktivlərinin əhəmiyyətli hissəsini qlobal bazarlarda, ələlxüsus da ABŞ və Böyük Britaniyanın müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldib. Baha neft onların gəlirlərini artırsa da, suveren fondlarda toplanmış vəsaitlərin qlobal bazarlarda idarə edilən investisiya gəlirliliyinə mənfi təsir edir. Eləcə də, sənaye və xammal bahalaşır, neft ixracatçılarının böyük bir qismi dünyanın innovasiya və texnologiyalar üzrə sənaye sektorundan asılıdır. Həmçinin dolların bahalaşması və qlobal maliyyə bazarlarında istiqraz və digər qiymətli kağızların indekslərindəki dəyişikliklər bir çox ölkənin tədiyyə balansına təzyiqlər yaradır, milli valyuta risk altına düşür, rezervlər məzənnə sabitliyini saxlamaq üçün xərclənir.

Müxtəlif ölkələrdə iqtisadi fəallığın azalması, habelə ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng aqrar-sənaye istehsalçılarının xərclərinin artması və s. amillər dünya iqtisadiyyatını çətin sınaq qarşısında, daha doğrusu, ağır böhran təhlükəsi ilə üz-üzə qoya bilər. Beynəlxalq Valyuta Fondunun və qlobal enerji agentliklərinin proqnozlarına görə, dünya iqtisadiyyatında yavaşlama tələbin azalmasını təşviq edəcək.

Bütün bu amilləri nəzərə aldıqda “OPEC+” ölkələri kimi kartel dövlətləri də narahatdır. Bu baxımdan, alyansın qərarlarının “OPEC” ölkələrinin maraqlarına uyğun olmasını söyləmək olar.




### Azərbaycan alyansın qərarını dəstəkləyir

“OPEC+” alyansının mövcud siyasi xətti Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyır. Bu neft ailəsinin üzvü olan ölkəmiz indiyə qədər hasilat və nəql kvotası ilə bağlı qərarları həmişə dəstəkləyib. 2024-cü və 2025-ci illərdə keçirilən iclasda ölkəmiz “OPEC+” qrupunun razılaşdırılmış “Əməkdaşlıq Bəyannaməsi”nə qoşulub. Alyansın hazırkı qərarına əsasən, Azərbaycanın gündəlik kvotası 550 min barrel həcmində müəyyən edilib. Bu, ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilə bilər. Ümumiyyətlə, respublikamız istər “OPEC”in, istərsə də “OPEC+”un qəbul etdiyi qərarlara hörmətlə yanaşaraq məsuliyyətli təchizatçı kimi kvotanın azaldılması barədə öhdəliklərini tam yerinə yetirib.

“OPEC+” ölkələri növbəti toplantıda istehsal gücünün artırılması barədə qərar qəbul edəsə, çox güman ki, əlavə hasilatda Azərbaycanın da kvotası artırıla bilər. Çünki mart ayının əvvəlindən bəri Yaxın Şərq münaqişəsi səbəbindən Səudiyyə Ərəbistanı, İraq, BƏƏ və Küveytdə neft hasilatı azalıb, onların bu boşluğunu digər ölkələrlə yanaşı, Azərbaycan da doldurmaq imkanındadır.

Yeri gəlmişkən, Azərbaycan, həmçinin “OPEC” alyansında da etibarlı tərəfdaş və nümunəvi tədarükçü kimi qəbul edilir. Ölkəmiz bu kartel blokunda təkcə neft ehtiyatlarının nəqlini deyil, həm də müasir qlobal bazarın əsas tələbatlarından birinə çevrilən alternativ yanacaq mənbələrinin səfərbər olunması və koalisiyalarla birlikdə nəqlində də təşəbbüskarlıq edir. “OPEC”in baş katibi Haysam əl-Qays bildirib ki, Azərbaycan-OPEC əməkdaşlığı etibarlı bir körpü rolunu oynayır, ötən dövrdə kartelin həyata keçirdiyi enerji siyasətinə öz dərin töhfəsini verən Azərbaycan qlobal enerji bazarında öz məsuliyyətini dərk edərək bütün öhdəliklərini layiqincə yerinə yetirib. Azərbaycan hər zaman enerji amilinə yalnız iqtisadi konteksdən yanaşaraq rifah və həmrəylik ruhunda addımlar atıb, ən çətin zamanlarda qlobal enerji təchizatlarının şaxələndirilməsində səylərini əsirgəməyib.

Beləliklə, “OPEC+” və “OPEC”in neft bazarı ilə bağlı qəbul edəcəyi qərarlar hər iki təşkilatda yaxın tərəfdaş kimi yer alan Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyacaq. Bu, həm hasilatla bağlı kvota öhdəliklərinin icrası, həm də sabit neft bazarı fonunda ölkəmizin dayanıqlı investisiya portfelinin idarə olunması baxımından faydalı hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# Avropa ABŞ-a məxsus ödəniş sistemindən çıxmağı planlaşdırır

## Fransa “Mastercard” və “Viza”ya alternativ olan Suveren Fondun yaradılmasını təklif edib

Fransa Prezidenti Emmanuel Makron Avropa üçün suveren ödəniş modelinin yaradılmasının vacibliyini vurğulayıb. Bu təşəbbüsün əsas məqsədi ABŞ-ın nəzarətində olan nəhəng ödəniş sistemlərinin - “Visa” və “Mastercard”ın qlobal maliyyə sistemində asılılığı azaltmaqdır. Bu, həm iqtisadi, həm texnoloji, həm də siyasi baxımdan strateji əhəmiyyət daşıyır. “Carte Bancaire” sammitində yayımlanan videomüraciətində Makron ödəniş sistemlərinin milli suverenliyin əsas hissəsi olduğunu bildirib. Onun sözlərinə görə, bu sahənin xarici şirkətlərin nəzarətində qalması risklidir. “Ödənişləri idarə etməmək o deməkdir ki, iqtisadi fəaliyyətimizin əsasını bizimlə eyni maraqları bölüşməyən aktorların ixtiyarına veririk”.

Makron Avropa səviyyəsində alternativ sistemin qurulmasına çağıraraq, “Wero” layihəsini ön plana çıxarıb. Hazırda Avropada ödənişlərin böyük hissəsi xarici infrastrukturlara əsaslanır. Fransada isə kartların əksəriyyəti həm milli “Carte Bancaire” sistemi, həm də “Visa” və ya “Mastercard” şəbəkələri ilə işləyən “ko-badged” kartlardır. Bu model yerli müstəqilliyi artırmaqla beynəlxalq istifadə imkanları ilə birləşdirir.

**“Carte Bancaire” - Avropanın yeni ödəniş arxitekturası**

Son illərdə neobankların və mobil ödənişlərin artması Amerika ödəniş şəbəkələrinə bağlı kartların sayını da çoxaldır ki, bu da Avropanın bank əməliyyatları və tranzaksiyalarından asılılığını gücləndirir. Aİ maliyyə icması hesab edir ki, buna baxmayaraq, 1984-cü ildə yaradılan “Carte Bancaire” sistemi Fransada dominant ödəniş mərkəzi olmaqla alternativ mobil ödəmə arxitekturasını qurmağa imkan verir. Bu sistem 77 milyon kartı özündə birləşdirir və dövriyyədəki ödənişlərin (Fransada) 80 faizi bu sistem vasitəsilə həyata keçirilir. Ona görə də, Makron bu modeli “Avropada unikal ödəniş modeli” hesab edir.

“Carte Bancaire” sisteminin tətbiqi Aİ bölgəsini kifayət qədər maliyyə itkilərindən xilas edə bilər. Belə ki, “Visa” və “Mastercard” vasitəsilə həyata keçirilən hər əməliyyat komissiya yaradır və həmin vəsaitlərin bir hissəsi Avropadan kənara çıxır. Bu, milyardlarla avronun Avropa iqtisadiyyatından kənarda qalması deməkdir. Yeni yerli sistem isə ödənişlər üzrə gəlirlərin qitə daxilində qalmasını təmin etməklə, gələcəkdə digər region ölkələrini də bu ödəniş şəbəkəsinə cəlb edə bilər.

Aİ-nin yerli ödəniş arxitekturası qurmasının arxasında siyasi niyyətlərin dayanması da istisna deyil. Çünki Amerika ödəniş şəbəkələri ABŞ qanunlarına tabedir və beynəlxalq gərginliklər zamanı bu, Avropa üçün asılılıq riski yaradır. Makron bu səbəbdən yerli ödəniş institunun “iqtisadi suverenliyin son halqası” adlandıraraq, onun idarəsinin ölkələrin müstəqil qərarvermə qabiliyyəti üçün vacib olduğunu vurğulayıb.

**“European Payments Initiative” qitənin vahid maliyyə siyasətini müəyyən edəcək**

Beləliklə, Amerika qitəsinin güc arxitekturası olan ödəniş blokundan çıxmaq və ya asılılığı azaltmaq üçün Avropa ölkələri təşəbbüsləri dəstəkləyərək birgə inkişaf planı hazırlamaqda qətidir. “European Payments Initiative” layihəsi qitə miqyasında vahid ödəniş sistemi bu hədəf çatmaq üçün ümumi konsept sayılır. Bu çərçivəyə uyğun olaraq test layihə kimi “Wero” artıq fiziki şəxslər arasında ani ödənişlər təklif edir və gələcəkdə ticarət sektoruna da genişlənməyi planlaşdırır. Bu prosesin tam mütəşəkkilliyi üçün banklar arasında koordinasiya, yüksək investisiya tələbləri və rentabellik məsələləri tələb olunur. Ekspertlər hesab edir ki, suveren ödəniş sisteminin qurulması Avropanın gələcək iqtisadi müstəqilliyi üçün həlledici rol oynaya bilər.

Yeri gəlmişkən, Avropa İttifaqı dünya maliyyə sistemində yeni ödəniş və yığım blokları formalaşdırmaq barədə üzv ölkələrin digər təşəbbüslərini də müzakirə etməkdədir. Ötən ilin ortalarında Aİ-nin maliyyə nazirləri təşkilatın maliyyə və müdafiə qabiliyyətini gücləndirmək üçün yeni hökumətlərarası fondun qurulmasını təklif edib və bu istiqamətdə hökumətlər səviyyəsində işlər aparılır. Təkliflər sənədinə əsasən, Avropa ölkələri dövlət borcunun səviyyəsini artırmadan maliyyə sisteminə külli miqdarda pul cəlb etməlidir. Təşəbbüs müəlliflərinin fikrincə, fond iqtisadi müstəqilliyi gücləndirməklə bərabər, qitənin müdafiə ləvazimatları üzrə potensilını da möhkəmləndirə bilər. Təşəbbüsə Aİ-yə üzv olmayan Böyük Britaniya, Ukrayna və Norveçin də cəlb olunması planlaşdırılır.

Ekspertlərin fikrincə, fondun əsas diqqəti “strateji imkanlara” - hazırda ABŞ-dan tədarük edilən bahalı xammal, o cümlədən müdafiə sənayesi üçün infrastruktur və avadanlıqlara cəlb olunmalıdır. Həmçinin bura birgə komanda və idarəetmə sistemləri, peyk kəşfiyyatı və rabitə vasitələri, beşinci və ya altıncı nəsil qırıcı təyyarələr kimi yeni silah sistemlərinin inkişafı da daxildir.




**“UnionPay” “Visa” və “Mastercard”ı geridə qoymaqdadır**

ABŞ-a alternativ ödəniş sistemlərinin yaradılması ideyası Çin, Rusiya, İran və digər dövlətlər tərəfindən də dəstəklənir, bu ölkələr davamlı olaraq “Visa” və “Mastercard”a qarşı yeni modelin yaradılması üzərində qlobal təşəbbüslərlə çıxış edib. Artıq Çin bu məqsədə çatmaqdadır, Pekin hökumətinin müəllifi olduğu “UnionPay” ödəniş sistemi hazırda “Visa” və “Mastercard”la ciddi rəqabət aparan, hətta onlardan daha geniş dövriyyəsi olan qlobal ödəniş sisteminə çevrilməkdədir. Dünyada kart sayı üzrə liderliyi ələ keçirən Çin şirkəti 7 milyarddan çox karta malikdir. “Visa”nın isə 4,5 milyard, “Mastercard”ın 3 milyard kartı istifadədir.

Baş ofisi Şanxayda yerləşən “UnionPay” ödəniş sistemi nəhəng elektron pul köçürmələri şəbəkəsi hesab edilir, kartları dünyanın 183 ölkəsində işləyir. 2025-ci ildə “UnionPay”la aparılan pul köçürmələrinin 43 faizi Çindən kənarda həyata keçirilib. Bu sistem vasitəsilə Hindistanda “RuPay”, Yaponiyada “JCB”, Cənubi Koreyada “BC kartı”, Rusiyada “Mir” kartları, Türkiyədə “Troya” kartları işə düşüb. Şirkət Avropada da sürətlə genişlənir. Avropanın 39 ölkəsində 2,2 milyona yaxın satıcı və obyekt “UnionPay” kartlarını qəbul edir .

Azərbaycan Mərkəzi Bankı və Çinin “UnionPay” ödəniş sistemi arasında bir neçə ay əvvəl imzalanmış anlaşma memorandumuna əsasən, ölkəmizdə bu şirkətin ödəniş kartlarının emissiyası və QR kod texnologiyalarının qarşılıqlı əlaqəliliyinin gücləndirilməsi nəzərdə tutulur. “UnionPay” ölkəmizdə kartlarının emissiyası və emalı, çarpaz pul köçürmə sistemlərinin inteqrasiyası, QR və token texnologiyalarının tətbiqi sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsinə töhfə verəcək. Bir sözlə, yaxın vaxtlardan etibarən Azərbaycanda “Visa” və “Mastercard”la yanaşı, “UnionPay” kartları da buraxılacaq. Azərbaycanın bank icması hesab edir ki, Çinlə bu sahədə əməkdaşlıq nağdsız ödənişlərin inkişafına, yerli kart sahiblərinə daha sabit, təhlükəsiz və rahat kart təcrübəsi, kart əsaslı məhsul və xidmətlərin, yeni innovativ məhsulların təqdim edilməsi kimi üstünlüklər gətirəcək.

**Rusiyanın milli ödəniş sistemi**

Ukrayna ilə müharibə başlayandan sonra “Visa” və “Mastercard” ödəniş sistemlərindən kənarlaşdırılan Rusiyanın iri bankları da artıq bank kartları olmadan fəaliyyət göstərən “Mir” sistemini alternativ xidmət kimi istifadə etməkdədir. Bu ödəniş sistemi Rusiyada kart ödənişlərinin fasiləsizliyini təmin edir. Bəzi ölkələrdə (Türkiyə, Ermənistan, Belarus) həmin sistem məhdud şəkildə istifadədir. “Mir” kartları Rusiya daxilində bankomat və mağazalarda tam funksionaldır. Rusiya “Mir”lə yanaşı, “UnionPay” sistemini də tam şəkildə bank bazarına daxil edib ki, beynəlxalq tranzaksiyalarda çətinliklər demək olar ki, aradan qalxıb. Rusiya hökuməti, həmçinin, rəqəmsal rubl və digər yeni ödəniş həllərini də hazırlayır. Yeni ödəniş sistemini “T-Bank”, “Sber” və “Alfa-Bank” öz üzərinə götürüb və sistem ənənəvi plastik kartlarının ləğvini, daha müasir ödəniş üsullarını nəzərdə tutur. Bu sistem QR kodları, biometrika, Bluetooth və digər texnologiyalardan istifadəyə əsaslanır. “T-Bank”ın ekosistem məhsulları departamentinin direktoru Sergey Xromovun sözlərinə görə, hazırda banklar layihə konsepsiyasını hazırlayır və yaxın vaxtlarda Mərkəzi Banka təqdim ediləcək.

*E.CƏFƏRLİ*

# 77 yaşlı NATO...

## ABŞ-ın mövqeyi hərbi alyansın gələcəyini sual altında qoyur

Bu gün Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) yaradılmasından 77 il ötür. Təşkilatın əsası 4 aprel 1949-cu ildə Vaşinqtonda imzalanmış müqavilə ilə qoyulub. Təşkilatın baş ofisi Brüssel şəhərində yerləşir. Qeyd edək ki, Belçika, Birləşmiş Krallıq, Fransa, Hollandiya və Lüksemburq tərəfindən 17 mart 1948-ci ildə imzalanan və "soyuq müharibə"nin başlanğıcındakı Sovet təhdidinə qarşı ortaq müdafiə razılaşması olan Brüssel müqaviləsi NATO-nun quruluşunun ilk addımı hesab olunur. Sovet İttifaqının törətdiyi Berlin böhranı isə 1948-ci ilin sentyabrında Qərbi Avropa Birliyinin müdafiə təşkilatının yaradılmasına səbəb olmuşdu. Buna baxmayaraq, müttəfiq dövlətlər Sovet İttifaqının hərbi gücü qarşısında zəif mövqeyə sahib idi. Həmçinin 1948-ci ildə kommunistlər tərəfindən Çexoslovakiyada həyata keçirilən hərbi çevriliş nəticəsində ölkədəki demokratik hökumətin hakimiyyəti tərk etməsinin ardınca Böyük Britaniyanın xarici işlər naziri Ernest Bevin oxşar hadisələrin qarşısını almaq üçün ən yaxşı yolun Qərb ölkələri arasında ortaq hərbi strategiyanın təşkil olunması olduğunu qeyd etmişdi.

### Alyans 12 ölkənin iştirakı ilə yaradılıb

1948-ci ildə isə ABŞ-ın xarici işlər naziri Corc Marşallın təlimatı ilə Pentaqonda avropalı liderlərlə amerikalı hərbi və siyasi rəsmilər arasında görüş təşkil olundu. Yeni hərbi ittifaq üçün təşkil olunan bu görüşmələr 4 aprel 1949-cu ildə Vaşinqton şəhərində Şimali Atlantika müqaviləsinin imzalanması ilə nəticələndi. Bu müqaviləni imzalayanlar arasında Brüssel müqaviləsinə tərəf olan 5 dövlət, həmçinin ABŞ, Danimarka, İtaliya, İslandiya, Kanada, Norveç və Portuqaliya da var idi. Yeni təşkilat ilk olaraq 12 ölkənin iştirakı ilə yaradıldı. İlk NATO baş katibi Lord İsmay 1949-cu ildə verdiyi açıqlamada bu təşkilatın məqsədinin nələrdən ibarət olduğunu bəyan etmişdi.

NATO üzv dövlətlərin tam müstəqilliyini və suverenliyini qoruduğu bir təşkilatdır. Şimali Atlantika Alyansında bütün qərarlar hər bir üzv ölkənin maraqları nəzərə alınmaqla, konsensus əsasında qəbul edilir. Ərazi sahəsindən, əhalisindən, siyasi və ya hərbi gücündən asılı olmayaraq, bütün NATO-ya üzv dövlətlər müzakirələrdə və qərarların qəbulunda bərabər söz sahibidirlər. NATO-nun əsas qərar qəbul edən orqanı Şimali Atlantika Şurasıdır. Şimali Atlantika Şurasının qərar qəbul etmək üçün iclasları 3 səviyyədə keçirilir: səfirlər səviyyəsində, nazirlər səviyyəsində və dövlət başçıları səviyyəsində.

Şimali Atlantika Alyansının əsas prinsiplərindən biri kollektiv müdafiədir. NATO-nun Nizamnamə Xartiyasının beşinci maddəsində (Vaşinqton müqaviləsində) kollektiv müdafiə öhdəliyi verilir, buna əsasən də bir və ya bir neçə dövlətə silahlı hücum bütün NATO üzvü olan dövlətlərə hücum kimi qəbul edilir. Mövcud halda alyans təhdid altında olan üzv ölkə və ya ölkələrə yardım göstərəcək və Şimali Atlantika regionunda təhlükəsizliyin bərpası və qorunması üçün hərbi güc tətbiqi də daxil olmaqla, bütün zəruri tədbirləri həyata keçirəcək. Beşinci

### 5-ci maddənin önəmi...

maddəyə NATO tarixində yalnız bir dəfə, 2001-ci il sentyabrın 12-də - ABŞ-a terror hücumundan bir gün sonra müraciət edilib.

Şimali Atlantika Alyansının daimi əsaslarla silahlı qüvvələri yoxdur. NATO-nun birgə hərbi strukturunda iştirak edən hər bir üzv dövlət razılaşdırılmış tapşırıqları və əməliyyatları yerinə yetirmək üçün müəyyən sayda və növdə silahlı qüvvələr ayırmaq məsuliyyətindədir. Amma 2006-cı ildən NATO-nun quru, hava, dəniz və xüsusi təyinatlı qüvvələrin komponentlərini özündə birləşdirən, texnoloji cəhətdən inkişaf etmiş, yaxşı təlim keçmiş "Çevik Reaksiya Qüvvələri" (NRF-NATO Response Force) tam hazır vəziyyətdədir. Alyansa üzv ölkələrin başçıları 2002-ci ildə NATO-nun Praqa zirvə görüşündə çevik reaksiya qüvvələrinin yaradılmasına dair qərar qəbul ediblər. NATO doktrinasına əsasən, bu qüvvələrin əsas vəzifəsi lazım gəldiyi halda, 5 gün ərzində konkret plasdarmı tutmaq və əsas qüvvələr tərəfindən genişmiqyaslı əməliyyatın başlanılmasına şərait yaratmaqdır.

Şimali Atlantika Şurasının iclaslarına isə NATO-nun baş katibi sədrlik edir. NATO-nun baş katibinin səsvermə hüququ yoxdur, çünki əks halda baş katib tərəfindən təmsil olunan üzv ölkələrdən biri 2 səsə malik olar və NATO-da isə hər bir üzv ölkə bir və bərabər səs hüququna malikdir. NATO-nun baş katibi üzv dövlətlər tərəfindən 4 il müddətinə təyin edilir. Bu günə qədər NATO-nun ümumilikdə 13 baş katibi olub. Hazırda alyansın bu vəzifəsini Niderlandın keçmiş baş naziri Mark Rütte daşıyır.

NATO Hərbi Komitəsi isə Şimali Atlantika Şurasının siyasi rəhbərliyinin nəzarəti altında olan NATO-nun ən yüksək hərbi orqanıdır. Hərbi Komitə NATO-nun siyasi strukturlarına hərbi strategiya ilə bağlı təlimatlar verir və Alyansın hərbi fəaliyyətinə cavabdehdir. Hərbi komitə NATO üçün mümkün təhlükə yarada biləcək ölkələrin hərbi gücünü və imkanlarını qiymətləndirir. Hərbi vəziyyət, böhran vəziyyətləri və ya alyansın sülhməramlı-hərbi əməliyyatları zamanı Şimali Atlantika Şurasına və Nüvə Planlaşdırma Qrupuna məruzə və tövsiyələr təqdim etmək üçün məsuliyyət daşıyır.



### Azərbaycan-NATO tərəfdaşlığı inkişaf edir

Qeyd edək ki, hazırda alyansın 32 üzvü var. Üzvlərin sayının artmasına, yəni şərqə doğru genişlənməsinə səbəb SSRİ-nin dağılması və Varşava müqaviləsinin üzvü olan keçmiş sosialistlər olan Şərqi Avropa ölkələrinin də NATO-ya qoşulmasıdır. Hazırda Rusiya istisna olmaqla NATO keçmiş SSRİ-nin bir sıra ölkələri ilə fəal əməkdaşlıq edir. Bu baxımdan, Azərbaycan-NATO əlaqələri xüsusilə vurğulanmalıdır.

Azərbaycan ilə NATO arasında əməkdaşlığın tarixi 1992-ci ilin mart ayından başlanır. Həmin tarixdə Azərbaycan 37 ölkə ilə yanaşı, yeni yaradılmış Şimali Atlantika Əməkdaşlığı Şurasına daxil olub. Lakin ölkəmizin alyansla real əməkdaşlığı 1994-cü ilə təsadüf edir. Belə ki, 1994-cü ilin yanvar ayında Sülh Naminə Tərəfdaşlıq (SNT) təşəbbüsü irəli sürülüb. Avro-Atlantik məkanda sabitliyi və təhlükəsizliyi təmin edən təşəbbüsə ilk qoşulan ölkələrdən biri də Azərbaycan idi. 1994-cü il 3-4 may tarixlərində Belçikaya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti SNT-in Çərçivə sənədini imzalayıb. SNT mexanizmi NATO ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlıq və hərbi sistemlərin uyğunlaşdırılması üçün münbit şərait yaradıb. 1997-ci il noyabrda Azərbaycan Prezidenti Azərbaycanın NATO yanında diplomatik Nümayəndəliyinin təsis edilməsi barədə sərəncam imzalayıb.

Azərbaycanın NATO ilə siyasi dialoq və praktiki əməkdaşlığını istiqamətləndirən əsas mexanizm isə NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planıdır (FTƏP). Ölkəmiz alyansın beynəlxalq missiyalarında da fəal iştirak edib. Belə ki, Silahlı Qüvvələrimizin hərbçilər NATO missiyası çərçivəsində Kosovada və Əfqanıstanda sülhyaratma əməliyyatlarında yaxından iştirak ediblər. Hazırda da tərəflər arasında əməkdaşlıq uğurla davam edir.

### Vaşinqtonsuz "kağız pələng"...

Qeyd edək ki, hazırda NATO daxili ziddiyyətlər yaşamaqdadır. Donald Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra üzv ölkələr qarşısında hərbi xərclərin artırılmasını bir tələb kimi qoyub. Bu tələbin səbəbi alyansın xərclərinin böyük hissəsinin ABŞ-ın "çiyinlərində" olması ilə bağlıdır. Bundan sonra bir sıra Avropa ölkələri müdafiə xərclərini artırıblar. Ancaq problem bununla bitmir. Bu gün Tramp İranla müharibədə NATO müttəfiqlərinin ABŞ-a dəstək verməməkdə ittiham edir.

Ona görə də, 7-8 iyul tarixlərində Ankarada keçiriləsi planlaşdırılan alyansın sammitinin əhəmiyyəti İran ətrafındakı gərginlik və sonradan Vaşinqtonun NATO-ya qarşı sərt tənqidləri fonunda daha da artıb. İlin əvvəlində Türkiyə paytaxtında keçiriləcək sammitdə müdafiə imkanlarının gücləndirilməsi və modernləşdirilməsi, kiber və enerji təhlükəsizliyi, vacib infrastrukturun qorunması, transatlantik münasibətlərin gələcəyi və müdafiə xərclərinin bölüşdürülməsi kimi mövzuların müzakirə ediləcəyi gözlənilirdi. Lakin "Epik qəzəb" əməliyyatının başlanması və Ağ Evin NATO müttəfiqlərindən gözlənilən dəstəyi təmin edə bilməməsi sammitin gündəliyini kökündən dəyişdirib. Belə ki, İtaliya bu yaxınlarda ABŞ-ın Siciliyadakı hərbi bazaya təyyarələrin enməsi tələbinə mənfi cavab verib, İspaniya isə müharibə ilə əlaqəli əməliyyatlar üçün öz bazalarından və ya hava məkanından istifadəyə icazə verməkdən imtina edib. Böyük Britaniya, Fransa və Almaniya da daxil olmaqla digər müttəfiqlər rollarını regional tərəfdaşlara müdafiə dəstəyi ilə məhdudlaşdırır və gərginliyin azaldılmasına çağırırlar.

Şimali Atlantika Alyansının dəstəyinin olmadığını tənqid edən ABŞ Prezidenti Donald Tramp isə Vaşinqtonsuz NATO-nu "kağız pələng" adlandırıb və belə bir sual verib: "Əgər onlar bizim tərəfimizdə deyillərsə, biz niyə onların yanında olmalıyıq?". Təsadüfi deyil ki, bir neçə gün öncə ABŞ Dövlət katibi Marko Rubio Vaşinqtonun İran müharibəsindən sonra NATO alyansının dəyərini yenidən qiymətləndirə biləcəklərini vurğulayıb. O, "FOX News" telekanalına verdiyi müsahibədə qeyd edib: "Bu münaqişə başa çatdıqdan sonra NATO ilə münasibətləri yenidən nəzərdən keçirməli olacağıq. Alyansın ölkəmiz üçün dəyərini yenidən nəzərdən keçirmək lazım gələcək. Nəticə etibarilə, bu, Prezidentin verəcəyi qərardır". Rubio NATO müttəfiqlərini ABŞ-nin hərbi bazalardan istifadə tələblərini rədd etdiklərinə görə tənqid edərək deyib: "Biz onlardan hava hücumları keçirməyi istəmirik. Onların hərbi bazalarından istifadə etməyə icazə verilməsinə ehtiyac duyduğumuz vaxtda rədd cavabı alırıq. Bəs biz niyə NATO-dayıq?".

Beləliklə, Ağ Evin mövqeyi hərbi alyansın gələcəyini əhəmiyyətli dərəcədə aktuallaşdırıb və onun yeni fəaliyyət istiqamətləri iyul ayında Türkiyə paytaxtında müəyyən ediləcək.

*Nardar BAYRAMLI*

# Hörmüz boğazı konfransı: 41 ölkə bölgəyə hərbi qüvvə göndərməkdən imtina edib



Hörmüz boğazı konfransının iştirakçıları İsrail və ABŞ-ın İrana qarşı əməliyyatı davam etdiyi müddətdə bölgəyə hərbi qüvvə göndərmək istəmirlər.

"Politico" nəşrinin məlumatına görə, Böyük Britaniyanın sədrliyi ilə keçirilən videokonfransda ümumilikdə 41 ölkə iştirak edib. Onların liderləri tərəflər arasında atəşkəs əldə olunanadək hərbi vasitələrə əl atmaq niyyətində olmadıqlarını bildiriblər.

İştirakçı ölkələrdən birinin nümayəndəsi nəşrə bildirib ki, konfransda Hörmüz boğazı ilə bağlı Qara Dəniz Təşəbbüsü modeli müzakirə olunmayıb.

Böyük Britaniya Xarici İşlər Nazirliyi konfransdan sonra iştirakçıların Hörmüz boğazından keçid üçün İrana rüsum ödəmək niyyətində olmadıqları barədə bəyanat verib.

Qeyd edək ki, Tehran Hörmüz boğazını ABŞ, İsrail və İrana qarşı təcavüzü dəstəkləyən ölkələrlə əlaqəli gəmilər üçün bağlayıb. Həmçinin İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Tehranın icazəsi olmadan boğazdan keçən bir neçə tankerə zərbə endirib. Sonradan İranın xarici işlər naziri Abbas Əraqçi Rusiya, Hindistan, İraq, Çin və Pakistan da daxil olmaqla dost ölkələrin boğazdan keçidinə icazə verildiyini açıqlayıb. Bunun ardınca İran Məclisinin (Parlament) Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü Alaəddin Borucerdi tezliklə qəbul ediləcək yeni qanuna uyğun olaraq, Hörmüz boğazından keçən gəmilərdən rüsum alınacağını açıqlayıb.

# UNCTAD: Qlobal iqtisadi artım risk altındadır

Hörmüz boğazının faktiki olaraq bağlanması bütün qlobal iqtisadiyyatı tədricən bürüyə biləcək dərin bir böhrana səbəb olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) ekspertləri bildiriblər.

Qeyd olunub ki, fevralın sonlarında başlayan eskalasiyadan sonra daha da pisləşən vəziyyət boğazda dəniz nəqliyyatının 95 faiz azalmasına səbəb olub. Belə ki, tranzitlər fevral ayında gündə 130 gəmidən mart ayında cəmi 6 gəmiyə düşüb. Əsas enerji arteriyasındakı fasilələr neft və qaz təchizatında çatışmazlığa, dəniz və hava yükdaşımaları da daxil olmaqla əlaqəli logistika sistemlərinin iflic olmasına səbəb olub.

Yanacaq qiymətlərinin kəskin artması qlobal miqyasda malların istehsalı və daşınması xərclərini artırıb. UNCTAD qeyd edir ki, bu, əsasən Hörmüz boğazından keçən neft və mayeləşdirilmiş təbii qaz tankerləri ilə yüklərin daşınmasına təsir göstərir, konteyner daşımaları isə artan xərclər səbəbindən dolayı təzyiqlə üzləşir.

Avropa və Cənubi Asiya xüsusi risk altındadır, çünki bu regionlar Yaxın Şərq ixracatından daha çox asılıdır. Əgər fasilələr davam edərsə, qiymətlər uzun müddət yüksək səviyyədə qalacaq.

UNCTAD onu da qeyd edir ki, geosiyasi qeyri-sabitlik şəraitində qlobal mal ticarətinin artımı 2026-cı ildə 2025-ci ildəki 4,7 faizdən 1,5-2,5 faizə qədər azala bilər. Qlobal ÜDM artımının da 2,9 faizdən 2,6 faizə düşəcəyi gözlənilir.

Vəziyyət maliyyə qeyri-sabitliyi ilə daha da ağırlaşır: investorlar inkişaf etməkdə olan ölkələrdən kapitalı kütləvi şəkildə çıxarırlar ki, bu da valyutaların zəifləməsi, qida və gübrə kimi vacib idxal məhsullarının qiymətinin artması deməkdir. Bu, həmçinin ölkələrin beynəlxalq bazarlarda artan borclanma xərcləri ilə üzləşməsi anlamına gəlir.

Borc xidməti xərclərinin səhiyyə və təhsil xərclərini aşdığı ölkələrdə artıq 3,4 milyard insan yaşayır və bunu nəzərə alan UNCTAD qlobal borc böhranı ehtimalı barədə xəbərdarlıq edir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Şənbə üçün nəzm









*Rəşad Nağı Mustafa*

Göydən nəsə yağır, nəsə bilmirəm,
Qara da oxşamır, yağış da deyil.
Baxışım yadlaşıb, gözüm yaşlanıb,
Bu sima özümə tanış da deyil.

Özüm öz atdığım daşa çatıram,
Uçuram bir naşı quşa çatıram.
Atamın öldüyü yaşa çatıram,
Məsələ bir-iki qırışda deyil.

Getmək çətin olur, gəlməyə nə var,
İnsan unutqandır, bilməyə nə var.
İlahi, qocalıb ölməyə nə var?
Ölüm yaxşı şeydir, bu yaşda deyil.

Əsalar insana boyun əyirlər,
“Yaxşıyam” deyənlər “yaxşı” deyillər,
Küsdüyüm adamlar nəsə deyirlər,
O nəsə nədirsə, bağışla deyil.

***

Allah, səndən ötrü çox darıxmışam.
Yetim olmamışdım hələ belə mən,
Axı yetimlərin yiyəsi sənsən,
Atası ölənin biri elə mən.

Dostumun əlindən əsa düzəldən,
heç vaxt yıxılmayan adam mənəm,
mən.
Qəbrinin üstündən gələn səs-küydən
qorxma, qurban olum, atam... mənəm
mən.

Qorxma, qurban olum, dostum var mə-
nim.
Sənə daldalanıb çıxdığım ağac
qırıldı, yıxıldım ürəyi üstə.
Bir çiynim boş qaldı, bir çiynim dolu...
Kəsdim ağaclarla salam-sağolu,
Dalaşdım Bakının küləyi üstə.

Götürüb oğlumun oyuncaqların
Sən mənlə oynayan kimi oynadım.
Onda mən sən oldum, oğlum mən oldu.
Tapanca oynadıq, gəmi oynadıq...
Mənim oyuncağım düşdü əlimdən,
Dedin ki: “Eybi yox, qəflətən oldu...”
Onda mən sən oldum, oğlum mən oldu.

Qorxma, tək deyiləm, atam, ay atam
Nə qədər yerim var çıxıb getməyə...
Təbriz şəhərim var çıxıb getməyə.

***

Ki bəs qayıtdı ki, çox darıxmışam.
Mən heç nə demədim, susdum eləcə;
Var axı ürəkdən susmağım mənim.
Susanda yuxudan qəfil ayıldım.
Gördüm, yerindədir anam, vətənim,
Ruhumdan azaddır Ana vətənim.

Sonra yarım saat güzgüyə baxdım;
Görüm, nəyim yoxdur, görüm, nəyim
var.
Götürüb bu günü keçmişə vurdum,
Gördüm ki, bir xoşbəxt gələcəyim var.
Şairəm, hesabda yaxşı deyiləm,
Heç dəqiq bilmirəm, neçənci iləm.

Mənim bir dostum var şəhər adında,
Bir də sevgilim var, yeri burdadır,
Bir də ondan qabaq anam ordadır.
Dostumun, anamın, yarımın yerin
biləndən bilirəm, vətən hardadır.

Bircə atam yoxdur... Yox e, o da var;
Bir az xatirədir, bir az məzardır.
Atamın qəbrinin üstünə getdim.
Nə görsəm, yaxşıdır? Dünya qurtardı.

İlahi, doğmamı çox görmə mənə,
Görsən, günahımı çox gör, İlahi.
Məni qıranları sənin xətrinə
Necə bağışladım, bax gör, İlahi.

Sən mənim özümü yaxşı bilirsən,
Nə gərək, hər şeyi gətirim dilə?!
Məni səndən yaxşı kim oxuyacaq?!
Mənim hikmətimi kim bilə bilər?!
Mənim şeirlərim duadır elə.

***

Bir gün ölüm gəldi, qapını döydü.
Mən evdə yox idim, olsam, açmazdım.
O gün atam öldü. 40 gün keçmədi,
Qəbrinin üstünə bir şeir yazdım.

Ağlaya-ağlaya bir şeir yazdım,
Anama oxudum, atam eşitdi.
Atamın üçündə atamı gördüm,
Başını götürüb harasa getdi.
Mən onda bildim ki, atam sağdır, sağ,
Gedib əl açanda baxdığım yerə
Mən ölən günədək qayıtmayacaq.

Bir xeyli dəyişdim atamdan sonra,
Təzə qafiyəsin tapdım yağışın.
Sonra nə oldusa, yadıma gəlmir,
Şeirin əzbərlədim Eldar Baxışın.
Sonra bir qız gördüm; yanağı dəlik,
saçları dalğalı, gözləri belə.
Gördüm, şeir-zad da qanır, üstəlik.

Sevdim mən bu qızı, belə, qəribə,
Elə bil xurmanı peyğəmbər sevir.
Necə başa salım, necə sevmişəm?
Atasız yetimlər nə təhər sevir?

Sonra atam kimi, fikrə getdim;
sol əlin şəhadət barmağı ki var,
götürüb apardım gicgah tərəfə.
Mənim harda idi sağ əlim onda?
Onu da qoymuşdum Allah tərəfə.

Qoymur unutmağa Allah atamı,
Mən də sağ bilirəm, o da sağ bilir.
Mən səni sevmişəm - bunu bilirsən.
Mən necə sevmişəm - bir Allah bilir.

***

Qırdım qanadını, qolunu qırdım.
Nə səni uçmağa qoydum, nə özüm
səninlə yanaşı uça bilmədim.
Gəl sənə öyrədim bağışlamağı,
Gəl sənə öyrədim, bağışla məni,
Sənə “gəl” dediyim yerə gəlmədim.

Qırdım qanadını, qolunu qırdım.
Qorxma, qanadların qırıq olsa da,
Sən uça bilərsən, uça bilərsən.
Uçmağa qanad yox, ürək gərəkdir,
Mənim də ürəyim naşı ürəkdir,
Eləcə döyünür, sevməyi yoxdur.
Yağış da, bulud da bietibardır.
Mən ki vəfasızam, sən uç, yaxşısı,
Göyün səndən başqa, heç nəyi yoxdur.

Qorxma, qanadların qırıq olsa da,
Sənə uçmaq üçün ürək də bəsdir.
Mənim məhəbbətim bir ovuc qumdur,
Məni unutmağa külək də bəsdir.
Yerdə gözləyənin olmadı sənin,
Tələsdir özünü, göyə tələsdir.

Bilirsən, nə varsa, göydə var elə,
Yerə səpələnən dənə aldanma.
Mənim Qış parkından yolum düşmədi,
Bir də məni sevmə, mənə aldanma.

Qırdım qanadını, qolunu qırdım.
Mən səni Allahdan arzulamışdım,
Səni axtaranda göyə baxırdım.

***

Ta keçmişəm tarix yazan yaşımı,
Yaşamaqla aldadıram başımı.
Buraxmışam azad könül quşumu,
Uçur, uçur, sənə qonur, görürsən?

Nəyim çatmır, var əlimin əsası,
Geyinmişəm qərib dərviş libası.
Allah məni qəbul edər, qadası?
Saqqalım da tez uzanır, görürsən?

Bu dərd məndə bir sevgidən qalıqdır,
Yanan könlüm kor gözümə işıqdır.
Axı sənin bəsirətin açıqdır,
Uzaqda bir ürək sınır, görürsən?

Baxan mənə görür ki, can üstəyəm,
Gör nə çoxdur məni ötmək istəyən.
Öz-özündən çıxıb getmək istəyən
Ayağından yaralanır, görürsən?

# Bukerin İran həmləsi

## Raketlər havadadır, deyəsən, atəş Ədəbiyyat cəbhəsindən gəlir...



*Məqsəd Nur*

Olmasın o ədəbiyyat və o mükafat ki, tam siyasiləşir. Amma qoy ictmailəşsin. Belə də olmalıdır. Bir-birinə bağlı, bəlkə də, bir-birinin içində mövcud olan anlayışlardır - siyasi və ictimai... Dünyadakı bütün ədəbi proseslər, yazılı təsir imkanı olan mətnlər, oxunan, öyrənilən müəlliflər həm də ictimai YÜK daşıyır, dolayısı ilə siyasi hədəflərə də gəlib çıxa bilir. Bəs nəyə görə, adını “mədəni siyasət”, “dil siyasəti” və sair qoyub uğrunda mübarizələr aparırıq? Mətnlər isə həm də çirkə bulaşmaz, suda batmaz, odda yanmazdır. Mətnlər dünyanı dəyişə biləcək bir gücdür...

Şida Bazyarın “The nights are quiet in Tehran”(“Tehranda gecələr sakitdir” - sətri tərcümə.) romanı 2026-cı il Beynəlxalq Buker Mükafatının qısa siyahısındadır. Bu mükafat hər il dünyanın istənilən yerində, istənilən dildə yazılmış, lakin mütləq və MÜTLƏQ Böyük Britaniya və ya İrlandiya nəşriyyatlarının birində ingilis dilinə tərcümə olunaraq nəşr edilməlidir. Mükafat fondu da böyükdür, tərcüməçi və müəllif arasında bölünməklə ədəbi mühitdə inanılmaz rezonans yaradır, sanki dünyanın ədəbi cameəsini ayaq üstə saxlayıb təmərgüzləşdirir, ayıq-sayıq olmağa vadar edir, diqqətləri daim öz üzərində saxlayır. Həm yerli naşir şifarişlər alır, həm dövlət xəzinəsinə vergi ödənir, ölkənin beynəlxalq statusu öz nüfuzunu və təsir imkanlarını qoruyub-saxlayır, həm də barəsində “Axı nə üçün bu qədər geniş yayılır?” deyə sual etdiyimiz ingils dili başqa dillərin, anlayışların hesabına çiçəklənir. Qazanılan xərclənən vəsaitdən qat-qat çoxdur...

Ədəbiyyat bu cür proseslərin içərisində olmalıdırmı? Görünür, müasir dünya hay-küysüz, PR-sız olmayacaq. Necə ki, Sİ (Süni intellekt) olmadan gələcəyi təsəvvür etmək mümkün deyil. İş orasındadır ki, “Buker” i təşkil edənlər Ədəbiyyatın strateji hədəflərini yağdan tük çəkən kimi çəkib çıxara bilirlər...

“Tehranda gecələr sakitdir” romanından iki fraqment: “...Valideynlərimizə neftin, amerikalıların, ingilislərin bir vahid, Şahın isə tamamən bizə qarşı olduğu deyilmişdi. Valideynlərimiz iş-güclərini bir kənara qoyub küçələrə çıxdılar və sonra yenidən evlərinə qayıtdılar... susmalı oldular, bir daha Şaha qarşı heç nə demədilər. Sonra bizi məktəbə göndərdilər və dedilər: Biz bu ölkəni sevirik; indi isə siz onun məktəblərini sevin...”

“... Hər İnqilab nə vaxtsa köhnəlir və biz bu ölkəni əvvəlkindən də daha çox sevməyə başlayırıq. Qısa müddətdə dərsliklər dəyişdirildi; Şah haqqında səhifələri cırıb divardan şəklini də götürdük...”

Şida Bazyar 1988-ci ildə Almaniyada anadan olub. Ədəbiyyat və jurnalistika üzrə təhsil alıb. “Tehranda gecələr sakitdir” onun ilk romanıdır. Tənqidçilər tərəfindən bəyənilən kitab Almaniyada 30 mindən çox nüsxə satılıb...

Yeri gəlmişkən, Beynəlxalq Buker Mükafatı klassik “Buker” dən xeyli müddət sonra təşkil edilməyə başladı. İngiltərə və Avropada bir vaxt ayılıb baxdılar ki, miqrantların bir qismi öz ana dilində deyil, gəlib yerləşdikləri ölkənin dilində yazmağa başlayıblar. Bir qisim isə öz dilində yazsa da, ÖZÜNDƏN QOPUB. Yəni, “qoca qitə”nin bir parçasına çevrilib. Nə üçün bu “dönmə”lərdən faydalanmasınlar?

# Sərhədsiz ünsiyyət...

## İnternet sadəcə texnologiya yox, həyat tərzimizdir

Bir zamanlar yalnız xəyal kimi görünən “dünyanın bir-birinə bağlanması” ideyası bu gün həyatımızın ayrılmaz hissəsinə çevrilib. İnternet artıq sadəcə texnologiya deyil, ünsiyyətimiz, işimiz, öyrənməyimiz, hətta düşüncə tərzimizdir.

**İnternetin faydaları...**

İnternet sayəsində bir çox işləri yerimizdən tərpənmədən, evdən çıxmadan rahatlıqla həll edə bilirik:

- İnsanlar dünyanın müxtəlif yerlərindən bir-birilərilə heç bir vaxt itkisi olmadan əlaqə saxlaya bilirlər;
- Hər kəs istənilən məlumatı asanlıqla əldə edə bilir;
- Şagirdlər, tələbələr dərslərində onlayn iştirak edə bilirlər;
- Onlayn kurslar vasitəsilə istədiyimiz sahəni və ya dili rahatlıqla öyrənə bilirik;
- Ödəməli olduğumuz məbləğləri qarşı tərəfə köçürmək 2 dəqiqəmizi belə almır;
- Lazım olan məhsulu və ya geyimi sifariş edirik və 24 saat ərzində qapıya çatdırılır və s.

Bütün bunlara görə də internet bəşər tarixinin ən mühüm ixtiralarından biri hesab olunur. Doğrudur, internetin faydaları qədər gənc nəslin inkişafında ziyanının da olduğu söylənilir. İnternetdən səmərəsiz şəkildə istifadə edən hər kəs günlərini məhv edir. Lakin bütün günahı tam olaraq internetin üzərinə də yıxa bilmərik. Böyüklər, gənclər, uşaqlar - hər kəs internetdən pis və ya yaxşı, başqa sözlə, istədiyi şəkildə istifadə edir. Bu, onların öz seçimidir...

**İnternet necə yaranıb?**




İnternetin yaranma tarixi haqqında müxtəlif söyləntilər var. Məsələn, internetlə bağlı ilk fikirlərin Leonard Kleinroks adlı amerikalıya məxsus olduğu deyilir. O, 1961-ci il 31 may tarixində “İnformation Flow in Large Communication Nets” adlı məqaləsində internetlə bağlı fikirlərini bildirmişdi. 1961-1962-ci illərdə ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun əməkdaşları S. Liklayder və L. Kleykrok uzaq məsafədən kompüter əlaqəsinin yaradılması və paket kommutasiya ideyasının nəzəriyyəsini irəli sürdülər. Onların bu nəzəriyyəsi daha sonra ARPANET olaraq ortaya çıxdı.

İnternetin yaranması ilə bağlı başqa bir fikir də var. Belə ki, 1958-ci ildə SSRİ-nin kosmosa ilk süni peyki buraxması ABŞ-ı müasir texnologiyaların inkişafını sürətləndirməyə sövq etdi. Bu məqsədlə yaradılmış xüsusi tədqiqat agentliyi olan DARPA yerüstü məlumat ötürülməsinin sürətləndirilməsi yönündə tədqiqatlara başladı. Bunun üçün ilk öncə ABŞ-da yerləşən bütün radarların vahid şəbəkədə birləşdirilməsi işinə başlanıldı. Bunun üçün müxtəlif məntəqələrdə, Pentaqonda, Hərbi Hava Qüvvələri, Hava Hücümundan Müdafiə bazalarında və digər məntəqələrdə yerləşən kompüterləri vahid şəbəkədə birləşdirmək lazım idi. Bu işi görmək üçün ABŞ-ın ən yaxşı kompüter mütəxəssisləri bir araya gətirildi. Uzun illər davam edən gərgin əmək və çoxlu tədqiqatlardan sonra 29 oktyabr 1969-cu ildə ilk dəfə internet vasitəsilə mesaj göndərilmişdi. Bu tarix internetin dünyada ilk dəfə meydana gəldiyi tarix hesab olunur. O zaman ancaq hərbi məqsədlə istifadə edilən internetin bütün insanların istifadə edə biləcəyi bir hala gəlməsində Vinton Cerf adlı riyaziyyat mühəndisinin xüsusi rolu oldu.

Vinton Cerf ötən əsrin 70-ci illərində universiteti yeni bitirmiş riyaziyyat mühəndisi idi. Gənclik illərində o, anadangəlmə eşitmə qüsurlu Karinneyə aşiq olur. Karinne eşitmədiyi üçün kimsəylə ünsiyyət qura bilmirdi. Kaliforniya Universitetində kompüterlərarası məlumat transferiylə məşğul olan Cerfin isə tək istəyi Karinneni xoşbəxt etmək idi. İnternet isə yalnız hərbi məqsədlə istifadə edilən bir sistem idi. Lakin Cerf kimi insanların sayəsində internet qısa müddətdə mülki sahədə də istifadə olunmağa başladı. Beləliklə, Cerf interneti Karinnenin də istifadə edə biləcəyi bugünkü halına gətirdi. Cerf deyirdi: “Bu gün həyat yoldaşım artıq universitetdə oxuyan oğlumuzla belə internet yoluyla danışa bilir. Kim bilir, bəlkə də interneti həyat yoldaşımı xoşbəxt edə bilmək üçün icad etmişəm”.

Amma unutmamalıyıq ki, internet güclü vasitədir və onu necə istifadə etdiyimiz gələcəyimizi müəyyən edir. Doğru informasiya yaymaq, rəqəmsal etikaya riayət etmək və təhlükəsizliyi qorumaq hər birimizin məsuliyyətidir.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5070**
**Sifariş: 405**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova